# ANNUAL REPORT
# 2008

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyatlarını qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

### KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

### UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti beynəlxalq əlaqələrin genişləndirilməsinə böyük önəm verir.

Hər bir ölkədə cəmiyyətin sağlam, demokratik və humanizm prinsipləri əsasınada formalaşmasına böyük diqqət verilir. Azərbaycan Respublikası dünya birliyinə inteqrasiya edərək beynəlxalq konvensiyaların iştirakçısı kimi, bu istiqamətdə bağlanmış müqavilələrdən irəli gələn məsələlərin həlli üçün kifayət qədər işlər görmüşdür. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının respublikada vüsət alması məqsədilə dövlət Azərbaycan Qızıl Aypara Cəmiyyətinə münbit şərait və hüquqi baza yaratmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada ən böyük sosial bazaya malik qeyri-hökumət təşkilatlarından biri kimi Beynəlxalq Hərəkatın fundamental prinsiplərini rəhbər tutaraq Beynəlxalq Humanitar Hüquq normaları çərçivəsində peşəyə, yaşa, milli və dini mənsubiyyətə, siyasi əqidəyə fərq qoymadan insanseverlik və xeyirxahlıq, mərhəmət və humanizm prinsipləri əsasında əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə, qaçqın və məcburi köçkünlərə, bir sözlə insanların qayğıya həssas təbəqəsinə təmənnasız tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlər göstərir.

Milli Cəmiyyətin fəaliyyəti üçün dövlətin yaratdığı hüquqi bazadan istifadə edərək öncə maliyyə təminatının gücləndirilməsi və zəruri layihələrin həyata keçirilməsi məqsədilə yeni 2008-2010-cu illər üçün Strateji Planı hazırlanmış və bunun sayəsində xarici donor təşkilatların müxtəlif layihələrə cəlb olunması, digər milli cəmiyyətlərlə işgüzar əlaqələrin qurulması, ənənəvi layihələrin davamlığının təmin olunması, maliyyə mənbələrinin müxtəlifliyi, o cümlədən yerli maliyyə mənbələrindən istifadə əsas prioritet kimi seçilmişdir.

2008-ci ildə də bir çox nailiyyətlərimiz olmuşdur. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının mühüm komissiyalarından biri olan Seçki Komitəsinə Az.QAC-ın Gənclər Komitəsinin sədri üzv seçilmişdir. Gürcüstandakı məlum münaqişə zamanı Türkiyə Qızıl Ayının dəstəyi ilə «Regional İş Birliyi Proqramı» çərçivəsində humanitar yardımların təşkili və paylanmasında Cəmiyyətimizin eksperti fəal iştirak etmişdir. Bu, bir daha Azərbaycan Qızıl Aypara Cəmiyyətinin regionda artan nüfuzunun parlaq göstəricisidir.

Səhiyyə sahəsində müxtəlif mövzularda maarifləndirmə işləri aparılmış, xüsusən də qan donorluğu və icma əsaslı ilk yardım istiqamətində zəruri fəaliyyətlərimiz olmuş, mina təhlükəsindən qorunmaq məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə Təhlükəsiz Oyun Meydançaları və itgin düşmüşlər barədə ətraflı məlumatların toplanılması layihələri davam etdirilmiş, yerli maliyyə mənbələrinin aşkarlanması üçün müvafiq işlər görülmüşdür. Əsas məqsədlərimizdən biri də yerli maliyyə mənbələrinin müxtəlifliyini təmin edərək missiyamızın yerinə yetirilməsində istifadə etmək, xarici donorların dəstəyi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsindən ibarətdir.

Maliyyə mənbələrinin artırılması sahəsində işgüzar münasibətlərin qurulması əsas nailiyyətlərimizdən biridir. Bu sahədə əldə olunan gəlirlər valideyn himayəsindən məhrum olmuş, əlil uşaqlar üçün xeyriyyə aksiyalarının keçirilməsinə sərf olunur və bunun sayəsində uşaqların istək və arzuları qismən də olsa təmin olunur.

Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi ilə işgüzar münasibətlərimiz daha da genişlənməkdədir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası ilə birgə müxtəlif layihələrin həyata keçirilməsinə önəm veririk. Bunlarla bərabər digər milli cəmiyyətlərlə sıx əməkdaşlıq istiqamətində fəaliyyətimiz davam edir. Norveç Qızıl Xaç Cəmiyyəti ilə əməkdaşlığımız davam etdirilir, Polşa Qızıl Xaçı, Türkiyə Qızıl Ayı ilə işgüzar münasibətlərimiz daha da inkişaf edir, Almaniya Qızıl Xaç Cəmiyyəti ilə ikitərəfli əlaqələrimiz qurulmaqdadır və s.

Bu il də o biri illər kimi Milli Cəmiyyətimiz üçün əlamətdar olmuşdur. Cəmiyyətimizin XXII Baş Məclisi keçirilmiş və məclis iştirakçılarına Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü, dövlət başçısı cənab İlham Əliyev təbrik məktubu ünvanlamışdır. Həmçinin, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində zəruri addımlar atılmış, Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinin daha da yaxşılaşdırılması məqsədilə hökumət tərəfindən önəmli işlər görülmüşdür. Belə ki, 7 aprel 2008-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti,

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyevin sərəncamı ilə hər il martın 10-u Azərbaycan Respublikasında «Qızıl Aypara Günü» kimi qeyd olunacaq. Həmçinin, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 iyul 2008-ci il tarixli sərəncamı ilə Bakı şəhərində Cəmiyyətin fəaliyyəti üçün ofis binası əvəzsiz olaraq, onun istifadəsinə verilmişdir. Bütün bunlar dövlətin humanitar sahədə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin uğurlu fəaliyyətinə verdiyi ən yüksək qiymətdir.

Gənclər və könüllülər Cəmiyyətimizin işində yaxından iştirak edirlər. Xüsusən, içtimaiyyət arasında maarifləndirmə işlərinin aparılmasında, fövqəladə hallar zamanı zərərçəkmiş insanlara yardımların edilməsində könüllülərimiz fəallıq göstərirlər. İlbəil gənc və könüllülər sıralarımıza qatılır, üzvlərimizin sayı artır.

Mən, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinə dəstək verən, onun humanitar fəaliyyəti üçün şərait yaradan bütün təşkilatlara, könüllülərimizə minnətdarlığımı bildirir və əmin edirəm ki, bu xeyirxah missiya bundan sonra daha da genişləndirilərək insanların rifahının yaxşılaşdırılmasına xidmət edəcəkdir.

***Dr. Novruz Aslanov***

***Azərbaycan Qızıl Aypara***
***Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

## SAĞLAMLIQ VƏ QAYĞI

**Məqsəd: Səhiyyə maarifi işi və səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlıq barəsində biliklərinin artırılması.**

## İcmada sağlamlıq və qayğı

Səhiyyə maarifi işi sahəsində əhalinin xəstəliklər barəsində maarifləndirilməsi və sağlamlığının yaxşılaşdırılması məqsədi ilə Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə, Qarabağ regional mərkəzlərində 83 nəfər təlimatlandırılmış, könüllü sağlamlıq işçiləri və tibb bacıları tərəfindən «Quş qripi», «Vərəm, HİV və AİDS», «Cinsi yolla keçən xəstəliklər», «İnfeksion xəstəliklər», «Düzgün qidalanma», «Süd vəzinin xərçəngi və onun profilaktikası», «Psixi sağlamlıq», «Sağlam həyat tərzi. Narkomaniya, alkoqolizmlə mübarizə» və s. kimi mövzular haqqında əhali arasında təbliğat işləri və tibbi-sosial xidmətlər aparılıb.




Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcmada Sağlamlıq Proqramı çərçivəsində fəaliyyət göstərən sağlamlıq işçiləri öz imkanları daxilində ictimai sağlamlıq məsələsini sosioloji tədqiqat vasitəsi ilə öyrənməyə çalışmışlar. Belə ki, əhali arasında sağlamlıqla bağlı aparılan sorğular nəticəsində əldə olunan məlumatlar içtimai sağlamlığın səviyyəsi və xüsusən də ona təsir edən amillər haqqında əhalinin məlumatlılıq səviyyəsini qiymətləndirməyə imkan yaradır və əsas diqqəti «Sağlamlıq və qayğı» şöbəsinin fəaliyyət istiqamətlərinə uyğun olan məsələlərə yönəldir. Bakı, Lənkəran, Sabirabad şəhərlərində əhali arasında aparılan sorğular insanların sağlamlıqla bağlı müxtəlif mövzular haqqında məlumatsızlığını göstərmişdir.

Eyni zamanda 1000 nəfər qadın arasında süd vəzisi xərçəngi barədə aparılan sorğular onların bu xəstəlik haqqında məlumatın olmamasını göstərmişdir. Beləliklə, Azərbaycanın bölgələrində Az.QAC tərəfindən aparılan səhiyyə maarifi işi və təbliğat kampaniyalarının təşkil olunması zəruridir.

**Süd vəzisinin xərçəngi xəstəliyi haqqında məlumatınız varmı?**




Az.QAC-nin «Sağlamlıq və qayğı» şöbəsinin əməkdaşları UNICEF tərəfindən təşkil edilmiş «Quş qripi» ilə bağlı tədbirdə iştirak etmişdir. YUNİSEF təşkilatı tərəfindən «Quş Qripi ilə mübarizədə nailiyyətlər» adlı hazırlanmış yekun vəsaiti ilə tanış olmuş və gələcəkdə bu sahədə fəaliyyətlər barəsində müzakirə aparmışlar.

2008-ci il May ayının 14-dən 16-dək İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyası «Sağlamlıq və qayğı» - 2008 Forumu keçirilmişdir. Bu tədbirdə Az.QAC-nin Sağlamlıq və qayğı şöbəsinin müdiri M.Qaraxanova iştirak etmişdir. Forumda Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Ümumdünya Səhiyyə Təşkilatı arasında Anlaşma Memorandumu imzalanmışdır.

Mütəmadi olaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti «31 may - Ümumdünya Tütünlə Mübarizə Günü»nü qeyd edir. Bu ildə də Cəmiyyət «Tütün məmulatlarının sponsorluğuna, satışına və reklamına qadağa qoymaqla onun istifadəsini azaltmaq» şuarı ilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyi, Müstəqil Tədqiqat Mərkəzi QHT ilə birgə Bakı şəhərində Heydər Əliyev parkında, əhali arasında siqaret çəkmənin insan sağlamlığına mənfi təsiri barədə, tütünlə mübarizə təbliğat kampaniyasını keçirmişlər. Kampaniyada siqaret əleyhinə sorğular aparılmış, əyani vəsaitlər paylanılmışdır.

Hər il olduğu kimi, «İcmada sağlamlıq» proqramı çərçivəsində 10 **oktyabr «Ümumdünya Psixi Sağlamlıq Günü»** qeyd edilir.

2008-ci ilin mövzusu «Psixi sağlamlığı prioritet mövzu kimi psixi xəstə insanların maraqlarını nəzərə almaq, onlara dəstək olmaq» dır. Bunun qeyd olunması üçün Az.QAC-nin «Sağlamlıq və qaygı şöbəsi»nin əməkdaşları, Azərbaycan Praktiki Psixoloqlar Assosiasiyasının prezidenti ilə birgə Bakı və regionlarda bir sıra tədbirləri həyata keçirmişlər. Belə tədbirlərdən birini Lənkəran şəhərinin Dövlət Humanitar kollecinin tələbələrinə «Psixi sağlamlıq» haqqında seminarın keçirilməsini qeyd etmək olar. Psixi sağlamlığa aid 100 ədəd mayka və 1 banner çap olunmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatı palliativ qulluğun tərifini belə müəyyən edir: palliativ qulluq həyatı təhlükə qarşısında olan xəstələr və onların ailələrinin yaşam keyfiyyətini yaxşılaşdırmağa yönəldilmiş bir yanaşmadır. Palliativ qulluq insanın ağrısının və digər fiziki, mənəvi-psixoloji problemlərinin vaxtında müəyyənləşdirilib qiymətləndirilməsi və idarə olunması tədbirləri sistemidir. Bu mövzuya aid seminar dekabr ayının 19-da Açıq Tibb Klubu Zalzburq tibbi seminarlarının iştirakçıları olan həkimləri ilə birgə AzQAC-nin Sabunçu Rayon bölməsində, rayonda fəaliyyət göstərən 25 **nəfər** sosial işçilər üçün təşkil olunmuşdur. İl ərzində «Sağlamlıq və qaygı» şöbəsinin əməkdaşları mütəmadi olaraq Bakı RM-nin rayon bölmələrinin sədrləri ilə 2008 – 2010 Strateji Plan üzrə görüşlər keçirmiş, könüllü sağlamlıq işçiləri və tibb bacılarının şəbəkəsinin yaradılması, qan donorluğunun inkişafı və sağlamlıq sahəsində fəaliyyətlərdə ortaya çıxan problemlər haqqında söhbətlər və müzakirələr edib, tövsiyələr vermişlər.

## Azərbaycanda qan donorluğunun inkişafı.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tövsiyə olunan könüllü təmənnasız qanın təhlükəsiz olmasını nəzərə alaraq, respublikada mütəmadi könüllü təmənnasız qan donorlarının cəlb edilməsi məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2008-ci ildə "Azərbaycanda könüllü təmənnasız qan donorlugunun inkişafı" adlı proqramını davam etdirmişdir. Layihə çərçivəsində 87 **nəfər** qan donorluğuna aid təlimatlandırılmış könüllü və Klub 25-in üzvləri tərəfindən «Sağlam həyat tərzi», «Sağlam mütəmadi könüllü qan donorluğu» sahəsində maariflənndirmə fəaliyyətini gücləndirməklə, təbliğat tədbirlərini təşkil etmişdirlər. İl ərzində 2430 **nəfər** qan donorluğu haqqında maarifləndirilmişdir.

2008 - ci il yanvar ayının 12-dən-18-dək Misirin Qahirə şəhərində «11-**ci Beynəlxalq Könüllü Təmənnasız Qan Donorlarının cəlb edilməsi» adlı** Kollokviumu keçirilmişdir. Kollokvium Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Misir Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunmuşdur. Kollokviumda 63 ölkə 250 nümayəndə (Qan donorluq Proqramlarının kordinatorları və Qan Banklarının nümayəndələri) iştirak etmişlər. Nümayəndələr arasında xüsusən Şərq ölkələrinin təmsilçiləri yüksək faiz təşkil edirdilər.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «Sağlamlıq və qaygı» şöbəsinin müdiri Mətanət Qaraxanova bu kollokviumda Milli Cəmiyyəti təmsil edərək, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Norvec Qızıl Xaç Cəmiyyətinin dəstəyi ilə 2004-2007-ci illər ərzində aparılan «Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafı» adlı layihənin hesabat - prezentasiyasını təqdim etmişdir.

10 Mart Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma gününə həsr edilmiş qanvermə aksiyasında mütəmadi könüllü qan donorları olan Az.QAC-tin prezidenti Novruz Aslanov və İsrail dövlətinin Azərbaycandakı səfiri Artur Lenk qan vermişlər.

Çin Qızıl Xaç Cəmiyyəti 29-cu Yay Olimpiya oyunları zamanı özünün fəxri qan donorlarına təqdim etmək məqsədilə könüllü qan donorlarını xüsusi qızıl medallarla mükafatlandırmaq qərarına gəlmiş və «Həyat Naminə Medalı» təsis etmişdir.

Beynəlxalq Qızıl Xac/Qızıl Aypara Cəmiyyətləri Federasiyasi həmin medallardan 5-ni Azərbaycan Qızıl Aypara Cəmiyyıtinə göndərmiş və onların mütəmadi könüllü təmənnasız qan donorlarına təqdim edilməsini tövsiyə etmişdir.

Həmin "Həyat Naminə Medal"la 5 nəfər mütəmadi könüllü təmənnasız qan donorları təltif edilmişdir. Onlardan 2 nəfər Azərbaycan Qızıl Aypara Cəmiyyəti, 2 nəfər "İrəli Gənclər" təşkilatı, 1 nəfər isə Azərbaycan Donorlar Asossiasiyasının təmənnasız könüllü qan verən gəncləridir.

Tədbirdə iştirak edən Az.QAC-in prezidenti Novruz Aslanov, Ə. Eyvazov adına Hematologiya və Transfuziologiya İnstitutunun direktoru A.Hacıyev, Pekində keçirilən 29-cu Olimpiya Oyunlarında gümüş mükafatlara layiq görülmüş Rövşən Bayramov və Vitaliy Rəhimov "Həyat Naminə Medal"ı könüllü qan donorlarına təqdim etmişlər (Musa Qurbanov, Nəsibə İmamverdiyeva, Fəridə Həsənzadə, Elnur Ağayev, Fərhad Mirzəyev).

12 iyun 2008-ci il tarixdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) «14 iyun Ümumdünya Qan Donoru Günü»nə həsr olunmuş dəyirmi masa keçirilmişdir. Tədbirdə iştirakçılar Cəmiyyət tərəfindən mərhəmət prinsiplərinə üstünlüyün verilməsi, donorluğun təbliğatı və təmənnasız donorların həvəsləndirilməsi kimi vacib məqamlar ətrafında müzakirələr apararaq, könüllü qan donorluğunun dəstəklənməsi, onun inkişiaf etdirilməsi, bu istiqamətdə maarifləndirmə işlərinin daha geniş miqyasda aparılması məsələləri müzakirə olunmuşdur.

İl ərzində «Klub 25» -in üzvləri müxtəlif tədris ocaqlarında – 1 və 2 saylı tibb məktəbi, İrəli Gənclər təşkilatı, Azərbaycan Dillər Universiteti, «AMERİKAN COUNCİLS» FLEKS Amerika məzunları və digər təşkilatlarda gənclər arasında əyani vəsaitlərin paylanması ilə könüllü təmənnasız mütəmadi qan donorlarını cəlb etmək məqsədi ilə geniş təbliğat tədbirləri keçirmişlər. Təbliğat fəaliyyətləri nəticəsində Az.QAC-ti Bakı Telefon İstehsalat Rabitəsi Birliyi, Qafqaz Universiteti, Bakı şəhəri 2 saylı Baza tibb məktəbi, Nəsimi Daxili Polis şöbəsi və digər rayon və bölgələrdə olan təşkilatlarda qanvermə aksiyaları təşkil olunmuşdur. İl ərzində Qan Bankının verdiyi məlumata əsasən Az.QAC-in xətti ilə 1933 nəfər könüllü olaraq qan vermişdir.

## Vərəm

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakı və regionlarda vərəmin yayılmasının qarşısını almaq məqsədi ilə səhiyyə maarifi işini təşkil edir. Bu təbliğat tədbirlərinə əhali arasında, orta və ali məktəblərdə vərəmə dair videofilmlərin nümayişi ilə seminarların keçirilməsi, sorğuların aparılması, dəirmi masaların təşkili kimi fəaliyyətlər daxildir.

Hər il olduğu kimi Az.QAC ölkədə aparılan «24 Mart-Ümumdünya Vərəmlə Mübarizə Günü»nə həsr edilmiş tədbirlərdə fəal iştirak edir.Bu il Bakıda Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyi tərəfindən dəyirmi masa təşkil olunmuşdur. Tədbirlə Ümumdünya Səhiyyə Təşkilatının Beynəlxalq Vərəm üzrə mütəxəssisi və ölkədə vərəmin müalicəsi, profilaktikası və bu sahədə aparılan təşkilati məsələlərlə bağlı fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Dəyirmi masanın məqsədi bir daha vərəmə aidiyyatı olan təşkilatların bu sahədə olan problemlərə diqqəti cəlb etmək və onların aradan qaldırılmasına dair fəaliyyətləri gücləndirmək, bununla Azərbaycanda vərəm xəstəliyinin qarşısının alınmasından ibarətidir.

Mart ayının 30-dan aprel ayının 12-dək Türkiyənin İstanbul və Ankara şəhərlərində gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan «Türkiyə Regional Vərəmlə mübarizə» adlı layihəsinə dair görüş keçirilmişdir. Görüşdə Türk, Şimalı Kipr, Orta Asiya Respublikalarının Qızıl Aypara və Gürcüstan Qızıl Xaç Cəmiyyətlərinin nümayəndələri iştirak etmişlər. Az.QAC «Sağlamlıq və qayğı» sektorunun rəhbəri ilə təmsil olunmuşdur. Görüşün son günündə iştirak edən nümayəndələr tərəfindən «Regional Vərəmlə mübarizə» layihəsinin icrasına dair sənəd imzalanmışdır.

2008-cı ildə AzQAC Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə, azadlığa buraxılan vərəmli məhkumları davamlı müalicəyə cəlb edərək, onların vərəm xəstəliyindən sağalmasına nail olmaq məqsədilə «Azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət» adlı pilot layihəsini davam etdirmişdir. Proqram çərçivəsində Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən təlimatlandırılmış AzQAC-nin tibb bacıları Bakının Yasamal, Binəqədi, Əzizbəyov rayonlarında yaşayan azadlığa buraxılan məhkumlar üçün vərəm xəstəliyinə qarşı davamlı DOTS müalicəsinə nəzarət etmişlər. Cəzaçəkmə müəssisəsində vərəm xəstəliyinin müalicəsinə başlayan məhkumların siyahısı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Vərəm Proqramının Ağ ciyər xəstəlikləri İnstitutu tərəfindən təqdim olunmuşdur. Az.QAC-nin tibb bacıları tərəfindən həmin məhkumların müalicəsinə azadlıqda nəzarət davam edilirdi. Tibb bacıları yerli vərəm dispanserlərində geydiyyata düşməyən xəstələrin

tapılmasında yardımçı olub, ayrılan dərmanları əldə edib xəstələrə çatdırıb, dərmanların qəbuluna nəzarət edib, xəstə və onun ailə üzvləri ilə səhiyyə maarifi işini təşkil ediblər. 14 nəfər xəstə arasında aparılan sorğuların təhlili onların DOTS-dərmanlarının qəbulu nəticəsində tez-tez baş ağrıları, mədə-bağırsaq sistemində pozğunluqları, psixoloji gərginliyin olmasını, eyni zamanda onlardan 9 nəfərin işsiz olması səbəbindən ailələrin maddi durumunun aşağı olması və bununla yanaşı yaxşı və keyfiyyətli qidalanmanın olmaması kimi problemləri göstərmişdir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən aparılan Milli Vərəm Proqramının, Ağ ciyər xəstəlikləri İnstitutunun mütəxəssisləri ilə birgə əməkdaşlıq sahəsində mütəmadi görüşlər və tibb bacılarının fəaliyyətində meydana çıxan problemlər müzakirə olunub, aradan götürülməsinə dair addımlar müəyyən edilmişdir.

İl ərzində «Azadlığa buraxılan vərəmli məhkumlarının davamlı müalicəsinə nəzarət» adlı pilot layihə çərçivəsində 31 **nəfər** xəstə əhatə olunmuşdur ki, onlardan 24 nəfər DOTS müalicəsini bitirmişdir. Digər xəstələr isə müalicəni davam edirlər.

## İcmaya əsaslanan İlk yardım.

İl ərzində «İcmaya əsaslanan İlk yardım» proqramı çərçivəsində 32 **nəfər** İlk yardım üzrə təlimatlandırılmış könüllü (10 nəfər –Bakı, 5 nəfər Füzuli, Ağdam, 10 nəfər Zaqatala və Ucardan yeni İlk yardım dəstəsinin üzvləridir, 7 nəfər isə RM-də ötən illərdə təlimatlandırılmış könüllülərdir) Bakı, Sabirabad, Mingəçevir, Lənkəran, Gəncə, Sumqayıt RM və Bakı, Ağdam, Füzuli, Zaqatala, Ucar RB –dən 1564 nəfər əhali arasında İlk Yardım vərdişləri haqqında təbliğat işləri aparmışdırlar.

İl ərzində İlk Yardım dəstələri ilə mütəmadi görüşlər, praktiki məşğələlər keçirilmişdir.

2008-ci il iyul ayından başlayaraq Polşa Qızıl Xaçının dəstəyi ilə 6 ay ərzində aparılması nəzərdə tutulan icmaların İlk Yardım vərdişlərini öyrənmək və bununla belə zərərçəkənə həkim gələnədək yardımın təşkilində iştirak etmək bacarıqlarını əldə etmək məqsədi ilə Zaqatala və Ucar Rayon Bölmələrində layihə həyata keçirilmişdir. Layihə çərçivəsində könüllülər üçün ilk yardım vərdişlərinin öyrənilməsinə dair təlim və tədbirlər keçirilmişdir. Bu təlimlərdə 72 nəfər könüllü iştirak etmişdir. Təlimdən əvvəl dinləyicilərin İlk Yardıma dair biliklərini yoxlamaq məqsədilə test üsulu vasitəsilə imtahan keçirilmişdir. Təlimlərdə dinləyicilərə nəzəri biliklər və ilk yardım vərdişləri oyrədilmişdir. Təlimdən sonra keçirilən test imtahanı göstərdi ki, 68% dinləyicilər keçirilmiş materialları yaxşı mənimsəmişlər. Noyabr ayının 25-dən 28-dək Polşa Qızıl Xaçın dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində Zaqatala rayonunun Car kəndində əhali arasında İlk Yardım vərdişlərinin nümayişi ilə geniş təbliğat kampaniyası keçirilmişdir. Kampaniya könüllülərin İlk Yardım sahəsində əldə edilən praktiki məşğələlərin nümayişi ilə müşahidə olunmuşdur. Könüllülər arasında keçirilən müsabiqə qaliblərinə mükafatlar təqdim olunmuşdur. Layihə çərçivəsində İlk Yardıma aid 2000 ədəd vərəqə, 250 ədəd 2009-cu ilin təqvimi və 500 ədəd plakatlar çap olunmuşdur. AzQAC-nin Zaqatala və Ucar RB-dən fəal könüllülərdən ibarət İlk Yardım dəstəsi yaradılmışdır.

Dekabr ayının 5-dən 9-dək Polşa Qızıl Xaçın dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı katibi B.Talıbov və «İlk yardım» sektorunun koordinatoru Ş. Biləndərli Polşaya işguzar səfər etmiş, Varşava şəhərində yerləşən baş qərargahda cəmiyyətin Baş Direktoru E. Smiyetanka ilə görüş keçirmişlər. Görüş zamanı milli Cəmiyyətlərin birgə əməkdaşlıq sahələri müzakirə edilmişdir. Az.QAC-ın nümayəndələri Polşa Qızıl Xaçın fəaliyyətləri ilə tanış olmuşlar və dekabr ayının 6-da bir günlük təlimdə iştirak etmişlər. Dekabr ayının 8-də Polşanın Lodz şəhərinə səfər etmiş və rayon bölməsinin işi ilə ətraflı maraqlanmışlar. Bundan sonra həmin komitənin təlim mərkəzində xilasedicilər üçün keçirilən təlimdə iştirak etmiş, fövqəladə hallar zamanı istifadə olunan avadanlıqlar (ədyal, çadır, dərman və s.) ambarında olmuşlar.

Hər il olduğu kimi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası «Ümumdünya İlk Yardım Günü» Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən qeyd olunur.

13 Sentyabr - «Ümumdünya İlk Yardım günü»nə həsr edilmiş kampaniya Bakı, Sabirabad, Mingəçevir və digər RM-də keçirilmişdir. Belə ki, Bakıda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllü İlk Yardım dəstələrinin üzvləri dənizkənarı Milli Parkda əhali arasında İlk Yardım vərdişlərini nümayiş etdirərək, iştirakçılar tərəfindən verilən sualları cavablandırmışlar. Kampaniya zamanı Milli Parkda könüllülər tərəfindən istirahət edən insanlar arasında İlk Yardıma aid informasiya materialları paylanılmış və onların keçirilən tədbirə cəlb olunmuşlar.

İl ərzində Az.QAC «**Trast SS Qaradağ Sement layihəsinin iştirakçıları**, «**Standart Oilfield Services**» təşkilatların 86 **nəfər** nümayəndəsinə ödənişli 16 saatlıq 2 İlk Yardım təlimini də təşkil etmişdir. Təlimdən sonra iştirakçılara Avropa Sertifikatı təqdim olunmuşdur.

**Nailiyyətlər**:

83 **nəfər** təlimatlandırılmış könüllü sağlamlıq işçisi və tibb bacısı əhali arasında Quş qripi, İİV/QİÇS, Vərəm, Süd vəzisi xərçəngi, Düzgün qidalanma, infeksion xəstəliklər haqqında maarifləndirilmə işlərinin fəaliyyətlərini davam etdirərək 4776 nəfər insan sağlamlığı ilə bağlı biliklərini artırmışdır. Onlardan 60% qaçqın və məcburi köçkünlər təşkil edir.

87 **nəfər** qan donorluğuna dair təlimatlandırılmış könüllü və Klub 25-in üzvləri tərəfindən 2430 nəfər insan qan donorluğu haqqında maarifləndirilmişdir.

1933 nəfər könüllü təmənnasız qan donoru olmuşdur.

25 **nəfərdən** ibarət (Bakı-10 nəfər, Ağdam, Füzuli - 5 nəfər, Zaqatala - 5 nəfər, Ucar - 5 nəfər) 3 **İlk Yardım** dəstələri yaradılmışdır.

1564 **nəfər** İlk Yardım vərdişlərinə dair maarifləndirilmişdir.

2 İlk Yardıma aid geniş kampaniya təşkil olunmuşdur

86 **nəfər** üçün pullu İlk Yardım təlimi təşkil olunmuşdur

31 **nəfər** azadlığa buraxılan vərəmli məhkumlardan 24 nəfəri DOTS müalicəsini bitirmişdir, 7 nəfəri isə müalicəni davam etdirməkdədir.

**Problemlər**: Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası, donor Cəmiyyətləri tərəfindən maliyyə dəstəyin mütəmadi olmaması və «İcmaya əsaslanan sağlamlıq proqramının həyata keçirilməsində bir qədər çətinliklər və aşağıda göstərilən problemlərin meydana çıxmasına səbəb olmuşdur. Belə ki, sağlamlıq işçiləri və tibb bacıları üçün təlimlərin keçirilməsi, vərəmli xəstələrə psixoloq-mütəxəssis tərəfindən məsləhətin verilməsi, əhali arasında sağlamlıqla bağlı maarifləndirici tədbirlərin geniş şəkildə aparılması, qanvermə aksiyalarının təşkili, əyani vəsaitlərin çapı, könüllü sağalmlıq işçilərinin həvəsləndirilməsi, monitorinqin aparılmaması və s. kimi problemlər proqramın göstəricilərinin (əvvəlki illərlə müqaisədə) aşağı olmasına təsir etmişdir.

## İİV və QİÇS LAYİHƏSİ

**Məqsəd:** Yaşa uygun İİV və QİÇS-lə bağlı bilikləri təmin etmək, gənclərə zəkalı qərar qəbul etməsində kömək, İİV və QİCS xəstəliyinin qarşısını almaq üçün sağlamlıqla bağlı davranışları inkişaf etdirmək.

**Fəaliyyətlər**:

Yanvar ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİVvə QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 1447 nəfərlə maarifləndirmə işi aparılmışdır.

Fevral ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 3295 nəfərlə maarifləndirmə işi aparılmışdır.

Mart ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 3343 nəfərlə maarifləndirmə işi aparılmışdır.

Aprel ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 2567 nəfərlə maarifləndirmə işi aparılmışdır.

May ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 3352 nəfərlə maarifləndirmə işi aparılmışdır.

İyun ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 3164 nəfərlə maarifləndirmə işi aparılmışdır.

25-26 iyul tarixdə Mingəçevir şəhərində Gəncə, Lənkəran və Mingəçevir Regional Mərkəzlərdən olan 27 nəfər QİÇS trenerləri üçün, təcrübə mübadiləsi məqsədilə 2 günlük görüş həyata keçirilmişdir. Ay ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİÇS sessiyaları həyata keçirilmişdir və nəticədə 3546 nəfərə maarifləndirmə işi aparılmışdır.

Avqust ayı ərzində trenerlərimiz tərəfindən təhsil ocaqlarında İİV və QİCS sessiyaları həyata keçirilmişdir və nəticədə 3100 nəfərə maarifləndirmə işi aparılmışdır.

27-28 sentyabr tarixdə Sabirabad Regional Mərkəzinin rayon bölmələrindən olan 26 nəfər könüllü üçün treyninq və 29-30 sentyabr tarixdə Lənkəran Regional Mərkəzinin rayon bölmələrindən olan 26 nəfər könüllü üçün 2 günlük İİV və QİCS biliklərin artırılması treyninqi həyata keçirilmişdir. Ay ərzində 3522 nəfərə maarifləndirmə işi aparılmışdır.

24-25 oktyabr tarixlərində Mingəçevir Regional Mərkəzinin rayon bölmələrindən olan 24 nəfər könüllü və 25-26 oktyabr tarixdə Lənkəran rayon bölmələrindən olan 24 nəfər könüllü üçün 2 günlük İİV və QİCS treninqi həyata keçirilmişdir. Ay ərzində 3222 nəfərə maarifləndirmə işi aparılmışdır.

13-14 noyabr tarixdə Gəncə Regional Mərkəzinin rayon bölmələrindən olan 25 nəfər könüllü və 22-23 noyabr tarixdə Lənkəran Regional Mərkəzinin rayon bölmələrindən olan 25 nəfər könüllü üçün 2 günlük İİV və QİCS treyninqi həyata keçirilmişdir. Ay ərzində 3340 nəfərə maarifləndirmə işi aparılmışdır.

05-06 dekabr 2008-ci il tarixdə Serbiyanın Belqrad şəhərində İİV və QİCS -ə və Vərəmə qarşı mübarizə Avropa Regional Şəbəkəsinin ənənəvi 12-ci görüşü həyata keçirilmişdir. Həmin görüşdə Milli Cəmiyyətimizdən 2 nəfər nümayəndə iştirak etmişdir.

Az.QAC 30 noyabr 2008-ci il tarixdə Dənizkənarı Milli parkda yerləşən «Roxe Club»da «Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası» təşkilatı ilə birlikdə «Ümumdünya QİÇS-lə mübarizə günü» ilə bağlı maraqlı tədbir keçirdi. Tədbirin keçirilməsində maarifləndirmə işlərinin genişləndirilməsi və gənclərin öz asudə vaxtlarını daha səmərəli və təhlükəsiz formada keçirmələri barədə məlumatlandırılmaları idi. Tədbirdə AzQAC-ın vitse-prezidenti Qafar Əsgərzadə, İcraçı Katib Bəylər Talıbov, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Bakı nümayəndəliyinin başçısı Səbinə-Nur Məhbubi-İran, «Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası –AQAT» təşkilatının prezidenti Gülsel Səfərova, Azərbaycanın bir sıra təşkilatlarının nümayəndələri, Az.QAC-ın könüllüləri, eləcə də Polşa və Gürcüstandan olan qonaqlar iştirak edirdilər. Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra əyləncəli məclis başladı və Azərbaycan estradasının tanınmış müğənniləri Ədalət Şükürov, Xəyyam Nisanov, «N-brothers» qrupu və Show aləminin digər nümayəndələri iştiraklara unudulmaz əyləncəli anlar bəxş etdilər.

**Nailiyyətlər**

İl ərzində proqram çərçivəsində 60 treyner hazırlanıb.

Kampaniyalarda ümumilikdə 7000- **dən** artıq insan iştirak edirdi.

Sessiyalarda il ərzində 33898 nəfər maarifləndirilmişdir.



| | | sayı (nəfər) | | | |
|---|---|---|---|---|---|
| 1. | Yanvar | 1447 | 730 | 717 | |
| 2. | Fevral | 3295 | 1648 | 1647 | |
| 3. | Mart | 3343 | 1672 | 1671 | |
| 4. | Aprel | 2567 | 1350 | 1217 | |
| 5. | May | 3352 | 1690 | 1662 | |
| 6. | İyun | 3164 | 1590 | 1574 | |
| 7. | İyul | 3546 | 1773 | 1773 | |
| 8. | Avqust | 3100 | 1550 | 1550 | |
| 9. | Sentyabr | 3522 | 1780 | 1742 | |
| 10. | Oktyabr | 3222 | 1612 | 1610 | |
| 11. | Noyabr | 3340 | 1670 | 1670 | |
| 12. | Dekabr | 4700 | | 2470 | 2230 |

## HUMANİTAR DƏYƏRLƏR

**Məqsəd**:

Azərbaycan Qızıl Aypara Cəmiyyəti insan ləyaqətinin qorunmasında, Hərəkatın Fundamental Prinsiplərinin və humanitar dəyərlərin yayımında aparıcı rol oynayır.

**Fəaliyyətlər**:

2008-ci il ərzində Cəmiyyətin Sabirabad, Lənkəran, Gəncə və Mingəçevir Regional Mərkəzlərində 230 nəfər könüllü, məktəbli, tələbə humanitar dəyərlər üzrə seminarlarda, dəirmi masalarda iştirak etmişdir.

2008-ci ilin noyabr ayının 10-dan 12-dək, Macarıstanın paytaxtı Budapeşt şəhərində Beynəlxalq Federasiyanın təşkili ilə və 19-dan 20-dək Rusiya Federasiyasının Moskva şəhərində Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkili ilə kommunikasiya üzrə treyninqlər keçirilmişdir. Təlimlər zamanı Federasiyanın yeni təşkilatı iş modeli, informasiya siyasəti, PR kampaniyaların keçirilməsi, informasiya, əlaqələr və vəkillilik üzrə strategiya və digər prezentasiyalar nümayiş olundu. İnternet səhifəsi üçün məlumatların yazılma qaydası, fövqəladə hallar zamanı mətbuatla iş üzrə məşğələlər, keyfiyyətli fotoşəkil çəkmək və onlarla işləmək üzrə təlimlər keçirildi. İştirakçıların qruplarda müzakirələri və prezentasiyaları ilə keçən təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim olundu. Treyninqlərdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İnformasiya və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov iştirak etmişdir.

İl ərzində müxtəlif çap materialları hazırlanmışdır:

| **Çap materiallarının növü** | **Çap materiallarının sayı** |
|---|---|
| İllik hesabat 2007 | 1,500 |
| Strateji Plan 2008-2010 | 1,500 |

- Milli Cəmiyyətin fəaliyyətini əks etdirən toplam 280 məqalə yerli qəzetlərdə, habelə Cəmiyyətin «Yeni Təfəkkür» qəzetində, «Cəza Cəmiyyət» Jurnalı, «Ailə Həkimi» Tibbi Kütləvi Jurnal, müxtəlif

informasiya agentliklərinin veb səhifələrində yerləşdirilmiş, telekanallarda süjetlər nümayiş etdirilmişdir.

**Nailiyyətlər**

- 2008-ci il ərzində Regionlarda fəaliyyət göstərən könüllülər, tələbələr və məktəblilər humanitar dəyərlər, ayrı-seçkilik, stiqma, tolerantlıq haqqında biliklərə yiyələnmişlər.
- Cəmiyyətin veb səhifəsi yeniləşmişdir

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı

**Məqsəd**:
Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Federasiya) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç və Qızıl Aypara emblemlərindən düzgün istifadə qaydaları və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları içtimaiyyət arasında yaymaqdır.

**Qısa Tarixi**

BHH-nın əsaslarının və BQX/QAH-in fundamental prinsiplərinin yayımı Cenevrə Kovensiyasına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsində Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1997, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır.

Yayım proqramı 1997-ci ildən BQXK-nın maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

**Fəaliyyətlər**:

Proqram BQXK və Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) arasında baglanmış əməkdaşlıq sazişi çərçivəsində, 2008-ci ilin fəaliyyət planı əsasında keçirilmişdir.

Fəaliyyət planına uygun olaraq, AzQAC-ın regionlarında fəaliyyət göstərən yayım könüllüləri üçün Az.QAC-ın baş qərargahında 1 treyninq keçirilmişdir. Treyninqin məqsədi yayım fəaliyyətini regionlarda genişləndirmək, könüllülərə BQX/QAH və AzQAC haqqında son məlumatlar vermək, təqdimatların düzgün və effektiv təqdim edilməsi üçün müvafiq bilgilər verməkdən ibarət olmuşdur. Treyninq zamanı yayım sektoru tərəfindən könüllülərə orta məktəblərdə təqdimatların başa düşülən səviyyədə həyata keçirilməsi məqsədilə BQX/QAH-ın tarixi və komponentlərini, fəaliyyətlərini, fundamental prinsiplərini, BHH-ın əsaslarını və AzQAC-ın fəaliyyətlərini özündə əks etdirən vəsaitlər təqdim edilmiş, Az.QAC haqqında qəbul edilmiş sonuncu hüquqi normativ aktlar haqqında məlumatlar verilmişdir.

Fəaliyyət planına uygun olaraq, regionlarda fəaliyyət göstərən təlimatlandırılmış yayım könüllüləri tərəfindən ətraf rayonlara səfərlər edilmişdir. Səfərlərin məqsədi rayonlarda və kəndəlrdə yaşayan insanlara BQX/QAH-ın tarixi və komponentləri, fəaliyyətləri, fundamental prinsipləri, BHH-nın əsasları haqqında məlumatlandırmaq olmuşdur.

Yayım sektoru tərəfindən BQX/QAH və Az.QAC, BHH-nın əsasları haqqında məlumatları özündə əks etdirən 130 ədəd təlimat kitabı hazırlanmışdır. Təlimat kitabının məqsədi yayım işini standartlaşdırmaq, regionlarda fəaliyyət göstərən yayım könüllülərini təlimat kitabı əsasında hazırlamaq, həmçinin, könüllülərin işinə köməklik göstərmək olmuşdur. Təlimat kitabının hazırlanmasında Makedoniya Qızıl Xaç Cəmiyyətinə aid ədəbiyyatlardan istifadə edilmişdir. Kitab BQXK ilə birgə müzakirələr əsasında hazırlanmışdır.

Yayım sektoru tərəfindən yayım siyasəti də hazırlanmışdır. Siyasətin məqsədi BQX/QAH-ın tarixi və onun tərkib hissələri və Fundamental Prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları, BHH-nın əsasları haqqında məlumatları müəyyən edilmiş hədəf qrupları arasında yayımlamaq, düzgün və operativ yayımlama mexanizmlərini təmin etmək, yayım fəaliyyətinin istiqamətlərini müəyyənləşdirmək olmuşdur. Siyasət Cəmiyyətin Rəyasət Heyəti tərəfindən baxılaraq təsdiq edilmişdir.

Cəmiyyətin rəsmi internet səhifəsi yeniləşmişdir. İstifadəçilərin səhifədən daha da səmərəli istifadə etməsi məqsədilə səhifəyə BQX/QAH-ın tarixi və fəaliyyətləri, BHH-nın əsasları haqqında məlumatlar, Az.QAC-ın həyata keçirdiyi sonuncu fəaliyyətlər və digər yeniliklər daxil edilmişdir.

Ətraflı Məlumatların Toplanması proqramı ilə əlaqədar həyata keçirilən tədbirlərdə yayım sektorunun məsul əməkdaşları iştirak etmiş, proqram haqqında baza məlumatlar yayım fəaliyyətinə daxil edilərək bu proqram barədə həm regionlarda, həm də Bakı şəhərində yayım işləri həyata keçirilmişdir.

İl ərzində mütəmadi olaraq hər ay yeni qeydiyyatdan keçmiş Cəmiyyətin könüllülərinə və üzvlərinə, yeni işçilərə BQX/QAH, onun tərkib hissələri və fundamental prinsipləri və BHH-nın əsasları haqqında təlimlər keçirilmişdir. Təlimlər zamanı müxtəlif əyani vəsaitlər və texniki vəsaitlərdən istifadə edilmişdir. Bunula bərabər il ərzində proqramın müəyyən etdiyi hədəf qrupları arasında (cəmiyyətin üzv və könüllüləri, şagirdlər, tələbələr, hərbi qüvvələr) maarifləndirmə işləri aparılmışdır.
8 may 2001-ci il tarixdə qəbul edilmiş «Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında» № 128-II Q saylı Azərbaycan Respublikasının Qanununa və buna müvafiq olaraq 1949-cu il 12 avqust tarixi Cenevrə Konvensiyaları və onlara əlavə edilmiş müvafiq protokollara zidd olan Qızıl Xaç və Qızıl Aypara emblemindən sui-istifadə (qanunsuz) halları aşkarlanmışdır. İl ərzində Bakı şəhərində keçirilən kampaniyalar nəticəsində 12 özəl obyektdə (tibb müəssisəsi və digər) Qızıl Xaç və Qızıl Aypara emblemindən sui-istifadə hallarının qarşısı alınmışdır. Bununla baglı obyektlərin məsul şəxslərinə rəsmi və şifahi xəbərdarlıq edilmiş, onlara yol verilən Qızıl Xaç və Qızıl Aypara emblemlərindən düzgün istifadə barədə məlumatlar verilmişdir. Son zamanlar KİV-də BQX/QAH-ın tərkib hissələrinin adlarında «Qızıl» sözünün «Qırmızı» kimi işlədilməsinin qarşısını almaq məqsədilə, Azərbaycan Respublikasının müvafiq Qanununa uyğun olaraq «Qırmızı Xaç və Qırmızı Aypara» sözlərinin «Qızıl Xaç və Qızıl Aypara» sözləri ilə əvəz edilməsi barədə informasiya agentliklərinə məlumat xarakterli məktublar ünvanlanmışdır.

BQXK ilə əməkdaşlıq çərçivəsində hərbi qüvvələr arasında yayım işləri aparılmışdır. Yayım zamanı hərbi qüvvələrin zabit heyətinə BQX/QAH və BHH-nın əsasları haqqında məlumat verilmiş, bu barədə onlara film təqdim edilmişdir.

BQX/QAH, onun tərkib hisələri və fundamental prinsipləri, Az.QAC-ın humanitar fəaliyyətləri, BHH-nın əsasları haqqında məlumatları kütlə arasında, əsasən də regionlarda geniş yayımlamaq məqsədilə informasiya bülletenləri hazırlanmışdır.

BQX/QAH-nın əlamətdar günlərində də yayım işləri davam etdirilmişdir. 8 may BQX/QAH yaranması günü ilə əlaqədar Xətai rayonunda yerləşən tərbiyə müəssisəsində islah olunan yeniyetmə məhbuslara Hərəkatin tarixi, fəaliyyətləri, fundamental prinsipləri, BHH-ın əsasları və Az.QAC-ın fəaliyyətləri haqqında dolğun məlumat verilmiş, informasiya xarakterli məlumatlar paylanılmışdır.

**Nailiyyətlər**

- 2008-ci il ərzində Regionlarda fəaliyyət göstərən 14 yayım könüllüsü BQX/QAH və BHH-nın əsasları, AzQAC-ın humanitar fəaliyyətləri haqqında son məlumatlar əldə etmiş, təqdimatların düzgün və effektiv təqdim edilməsi sahəsində biliklərə yiyələnmişlər.
- Yayım təlimatları 2302 nəfəri əhatə etmişdır.
- 130 ədəd təlimat kitabı hazırlanmışdır.
- Yayım siyasəti hazırlanmışdır.
- İnternet səhifə yeniləşmişdir.
- 12 özəl obyektdə (tibb muəssisəsi və digər) Qızıl Xaç və Qızıl Aypara emblemindən sui-istifadə halının qarşısı alınmışdır.

| № | Material | Say |
|---|---|---|
| 1 | Könüllülər üçün laminasiya edilmiş əyani vəsait | 84 əd. |
| 2 | İnformasiya bülleteni | 4.000 əd. |
| 3 | İnformasiya xarakterli material | 1.175 əd. |

**Yayım edilmişdir**

## Beynəlxalq Əlaqələr

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2008- ci ildə də beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Məhz ötən il ərzində Cəmiyyətin əməkdaşları çoxsaylı beynəlxalq görüşlərdə, seminarlarda və konfranslarda iştirak edərək Cəmiyyəti və Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişlər. Belə ki:

Amerika Qızıl Xaçının dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nümayəndə heyəti iyun ayının 4-dən 6-na kimi Amerikanın paytaxtı Vaşınqton şəhərinə rəsmi səfər etdi. Nümayəndə heyətinə Azərbaycan QAC-nin Prezidenti, Milli Məclisin Deputatı Novruz Aslanov, İcraçı Katib Bəylər Talıbov və Gənclər Komitəsinin sədri Şaban Şayev daxil idi.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının və Makedoniya Qızıl Xaç Cəmiyyətinin dəvəti ilə 2008-ci il avqust ayının 7-dən 8-dək Azərbaycan QAC-nin Prezidenti, Milli Məclisin Deputatı Novruz Aslanov, İcraçı Katib Bəylər Talıbov və Gənclər Komitəsinin sədri Şaban Şayev Makedoniyanın Skopye şəhərində rəsmi səfərdə olmuşlar.

16-21 dekabr 2008-ci il tarixdə İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Vitse-Prezidenti Ramazan Sultanov İranın Təbriz şəhərində rəsmi səfərdə olmuşdur.

10-14 iyun tarixlərində İslam Konfransı ölkələrinə üzv dövlətlərinin Qızıl Xaç/Qızıl Aypara Milli Cəmiyyətlərinin Türkiyənin İstanbul şəhərində keçirilmiş II Konsultasiya görüşündə, Cəmiyyətin Vitse-prezidenti Qafar Əsgərzadə işkirak etmişdir.

Mart ayının 5-dən 7-dək Az.QAC-ın İcraçı Katibi Bəylər Talıbov və İnformasiya və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov İspaniyanın Barselona şəhərində «Humanitar narkotika Siyasəti» üzrə Beynəlxalq Konqresdə iştirak etmişlər.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının və Gürcüstan Qızıl Xaç Cəmiyyətinin dəvəti ilə 2008-ci il noyabr ayının 18-dən 21-dək Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katib Bəylər Talıbov və Gənclər Komitəsinin sədri Şaban Şayev Gürcüstanın Tiflis şəhərində rəsmi səfərdə olmuşlar.

Polşa Qızıl Xaç və Azərbaycan Qızıl Aypara Cəmiyyətləri arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, 2008-ci ildə Polşa Qızıl Xaçının dəvəti ilə Dekabr ayının 5-dən 9-dək Az.QAC İcraçı Katib Bəylər Talıbov və İlk Yardım Koordinatoru Şahin Biləndərli Polşanın Varşava və Lodz şəhərlərində rəsmi səfərdə olmuşlar.

02-06 Mart 2008-ci il tarixində İcraçı Katibin müavini Elşən Səlimzadə Beynəlxalq Federasiyanın təşkili ilə Macarıstanın Budapeşt şəhərində keçirilən Fövqəladə Halların İdarə olunması üzrə koordinatorların görüşündə iştirak etmişdir.

Avqust ayının 24-dən Sentyabr ayının 5-dək İcraçı Katibin müavini Elşən Səlimzadə Regional Əməkdaşlıq Proqramı çərçivəsində Türkiyənin İstanbul və Gürcustanın Tiflis şəhərlərinə ezam olumnuşdur.

2008-ci ilin Aprel ayının 22-dən 26-dək Xorvatiyanın Zaqreb şəhərində Beynəlxalq Federasiyanın QİÇS və Vərəmlə mübarizə üzrə Avropa Şəbəkəsinin (ERNA-European Network AIDS) 12-ci konfransı keçirilmişdir. Cəmiyyətin İİV və QİÇS proqramının koordinatoru Şaban Şayev iştirak etmişdir.

18-19 avqust 2008-ci il tarixdə İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yeni yaradıldığı Seçki Komitəsinin birinci iclası həyata keçirilmişdir. Seçki Komitəsinin Azərbaycandan olan nümayəndəsi Gənclər Komitəsinin Sədri Şaban Şayev iştirak etmişdir.

2008-ci ilin noyabr ayının 10-dan 12-dək Macarıstanın paytaxtı Budapeşt şəhərində Beynəlxalq Federasiyanın təşkili ilə kommunikasiya üzrə treyninqlər keçirilmişdir. Treyninqlərdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İnformasiya və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov iştirak etmişdir.

Cəmiyyətin İnformasiya və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov 2008-ci ilin noyabr ayının 19-dan 21-dək Rusiya Federasiyasının Moskva şəhərində Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkili ilə kommunikasiya üzrə treyninqdə iştirak etmişdir.

Cəmiyyətin Minalara Qarşı Mübarizə proqramının koordinatoru Bayram Vəliyev 2008-cı il iyul ayının 6-dan 10-dək Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə Yaxın Şərq ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin mina fəaliyyətləri sahəsində çalışan nümayəndələri üçün Livanın Tir şəhərində keçirilən regional görüşdə iştirak etmişdir.

2008 il yanvar ayının 12-dən-18-dək Misirin paytaxtı Qahirə şəhərində «11-**ci Beynəlxalq Könüllü və Təmənnasız Qan Donorlarının cəlb edilməsi» adlı** Kollokvium keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Misir Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan kollokviumunda Cəmiyyətin Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova təmsil etmişdir.

Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının təşkili ilə 13-16 may tarixlərində Cenevrə şəhərində Sağlamlıq və Qayğı üzrə "Qlobal Forum"da iştirak etmişdir.

Macarıstanın paytaxtı Budapeşt şəhərində noyabr ayının 20-dən 21-dək Avropa Milli Qızıl Xaç və Qızıl Ayrapa Cəmiyyətləri Sağlamlıq və Qayğı menecerlərinin II-ci Forumunda, Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova Milli Cəmiyyəti təmsil etmişdir.

2008-ci ilin oktyabr ayının 24-dən 27-dək Sankt-Peterburq şəhərində Axtarış Xidməti MDB və Baltikyanı Dövlətlərin Axtarış xidmətlərinin rəhbərlərinin ənənəvi görüşündə Cəmiyyətin Axtariş şöbəsinin müdiri Afət Mirzəzadə iştirak etmişdir.

Beynəlxalq Federasiyanın təşkili ilə Albaniyanın paytaxtı Tirana şəhərində 5-9 iyun tarixlərində keçirilən Təchizat və İT texnologiyaları üzrə treyninqdə, Cəmiyyətin Təchizat şöbəsinin müdiri Elnur Ağayev iştirak etmişdir.

30 Aprel – 9 May tarixlərində Türkiyənin İstanbul şəhərində Vərəmlə Mübarizə Regional Proqramın yenidən işlənməsi üzrə görüşdə Cəmiyyətin Vərəmlə Mübarizə sektorunun rəhbəri Leyla Ələkbərova iştirak etmişdir.

2008-ci il dekabr ayının 1-dən 4-nə qədər Budapeştdə Mərkəzi Avropa və Cənubi Qafqaz ölkələrinin Qızıl Aypara və Qızıl Xaç Milli Cəmiyyətləri üçün İT və Telecom (İnformasiya texnologiyası və telekommunikasiya) üzrə təlimi keçirilmişdir. Təlim Federasiyanın Budapeştdə olan regional nümayəndəliyi tərəfindən təşkil olunmuşdur. Bu təlimdə Az.QAC-ni Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin assistenti Faiq Tahirli iştirak etmişdir.

2008-ci il oktyabrın 20-22-də dostluq, əməkdaşlıq əlaqələri çərçivəsində Türkiyə Qızıl Ay Cəmiyyətinin prezidenti cənab Tekin Küçükəli 9 nəfərdən ibarət nümayəndə heyətilə Azərbaycana rəsmi səfər etmişdir. Səfər zamanı onu Türkiyə Qızıl Ay Cəmiyyətinin vitse-prezidenti Əhməd Lütfü Akar, Baş Katib Müzeffer Komit, Baş Direktor Ömer Taşlı, Rəyasət heyətinin üzvü Heyati Çetin, Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Dəniz Şölen, Beynəlxalq Əlaqələr şöbəsinin müdir müavini Bayram Selvi, Müşavir - Fecri Alpaslan və regional əməkdaşlıq üzrə proqram meneceri Reşit Bastuq müşayiət etmişlər.

2008-ci il iyul ayının 26-dan 30-dək İtaliya Qızıl Xaç Cəmiyyətinin nümayəndəsi, psixoloq xanım Anna Mariya Rucerini Bakıya gəlmişdir. Səfərin məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyəti

tərəfindən İİV və QİÇS, narkotiklərlə mübarizə sahəsində aparılan fəaliyyətlər barədə məlumat toplamaq, ölkədə eyni istiqamətdə aparılan işlərlə tanışlıq olmuşdur.

## TƏŞKİLATİ İNKİŞAF

**Məqsəd**:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi vasitəsilə, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətləri həyata keçirmək məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və Beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək

**Fəaliyyətlər**:

2008-ci ildə təşkilati inkişaf sahəsində Cəmiyyətimiz tərəfindən kifayət qədər zəruri işlər görülmüşdür. Cəmiyyətimizin XXII Baş Məclisi keçirilmiş və məclis iştirakçılarına Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü, dövlət başçısı cənab İlham Əliyev tərəfindən təbrik məktubu ünvanlanmışdır. Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinin daha da yaxşılaşdırılması məqsədilə dövlət başçısı və hökumət tərəfindən müvafiq sərəncamlar verilmişdir. 7 aprel 2008-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyevin sərəncamı ilə hər il martın 10-u Azərbaycan Respublikasında «Qızıl Aypara Günü» kimi qeyd olunacaq. Həmçinin, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 iyul 2008-ci il tarixli sərəncamı ilə Bakı şəhərində Cəmiyyətin fəaliyyəti üçün ofis binası əvəzsiz olaraq onun istifadəsinə verilmişdir.


AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

«Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Nizamnamədə müvafiq əlavə və dəyişikliklər edilmiş, «Qırmızı» sözü «Qızıl» sözü, «Komitə» sözü «Bölmə» sözü ilə əvəz olunmuş, Cəmiyyətin hüquqi ünvanı Nazirlər Kabinetinin 21 iyul 2008-ci il tarixli sərəncamına əsasən dəyişdirilmişdir.

XXII Baş Məclisdə Az.QAC-ın fəaliyyətində xüsusi xidmətlərinə görə 15 bölmə sədrinə Az.QAC-ın «Fəxri Fərman»ı verilmişdir.

2008-ci ilin may-dekabr aylarında Az.QAC-ın yerli bölmələrində və bölmə statuslu ilk təşkilatlarında hesabat-seçki konfransları keçirilmiş, Az.QAC-ın növbəti XXIII Baş Məclisinə nümayəndələr seçilmişdir. 5 rayon bölməsində müvafiq kadr dəyişiklikləri aparılmışdır.

4 regional Mərkəzdə, həmin R.M. daxil olan yerli bölmə sədrlərinin iştirakı ilə üzvlərin sayının artırılması və zəruri layihələrin həyata keçirilməsi istiqamətində iclaslar keçirilmişdir.

Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində 2008-ci ildə Cəmiyyət tərəfindən müəyyən işlər görülmüşdür. Yerli İcra Hakimiyyəti orqanları yerli bölmələrin üzvlərinin artırılması üçün müvafiq tədbirlər həyata keçirmişlər. Bunun sayəsində üzvlərin sayı artmış və bölmələrin maddi-texniki bazası möhkəmlənmişdir.

2008-ci ildə Az.QAC-ın respublika üzrə 5730 ilk təşkilatı mövcud olmuşdur və üzvlərin sayı 230 000 nəfər təşkil etmişdir. Bu il Az.QAC-ın müvafiq olaraq Rəyasət Heyətinin 4 iclası keçirilmişdir.

Hər il mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə iş birliyi və Cəmiyyətə göstərilən köməkliklər barədə «Hesabat» hazırlanaraq əlaqədar dövlət və hökumət strukturlarına təqdim olunur.

**İlk Təşkilatların sayı**




**Üzvlərin sayı**




## RAYON BÖLMƏLƏRİNİN İNKİŞAFI PROQRAMI

**Məqsəd**

Proqramın məqsədi sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ümumi strukturlarının və imkanlarının gücləndirilməsi.

**Fəaliyyətlər**

2008-ci il ərzində yerli icra hakimiyyətləri, bələdiyyələr, beynəlxalq və yerli təşkilatlar ilə əməkdaşlıq davam etdirilir. Adı çəkilən təşkilatların nümayəndələri Az.QAC tərəfindən keçirilən treyninqlərdə mütəmadi olaraq iştirak ediblər.

-Zaqatala, İmişli və Xanlar Rayon bölmələrində imkanların qiymətləndirilməsi aparılmış və onun nəticəsi olaraq “İcmalarda ehtiyacların qiymətləndirilməsi”, “layihələrin planlaşdırılması və idarə edilməsi”, “monitorinq və hesabatlılıq” və “İlk yardım ” üzrə 140 nəfər işçi və könüllülər üçün 4 treyninq keçirilmişdir.

-Həmçinin, 1 " İctimai əlaqələr" və Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə dair həmin rayon bölmələri üçün treyninqlər keçirilmişdir.

-Zaqatala və İmişli RB-ri tərəfindən icmalarda Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü, Beynəlxalq Sağlamlıq günü, Siqaret və TB əleyhinə kampaniya və tədbirlər keçirilmişdir. Bütün bu tədbirlərdə ümumilikdə 750 nəfər icma üzvü iştirak etmişdi.

-Qızıl Ayparanın bölmə könüllüləri ilk yardım üzrə 1,550 nəfərə təlim keçirmişlər və daha 2,930 nəfər adama isə profilaktik sağlamlıq üzrə təhsil verilmişdir. «Beynəlxalq İlk Yardım Günü»ndə icmalarla 3 ilk yardım kampaniyası keçirilmiş və 4 səhiyyə maarifi kampaniyası təşkil edilmişdir.

-Həmçinin, bu layihə çərçivəsində bütün icmalarda 3 tədbir keçirilmiş və 900 icma üzvü aktiv surətdə iştirak etmişdir.

**Nailiyyətlər**

-Gəncə, Zaqatala və İmişli rayon bölmələri könüllülərin idarə edilməsini gücləndirmişlər. Onlar bölmə inkişafı işində hər bir könüllünün rolunu təyin etmişlər. Bütün könüllülər məlumat bazasında qeydiyyata alınmışlar.

-Yerli icra hakimiyyətləri ilə əməkdaşlıq gücləndirilmişdir. Layihədən qabaq yerli bölmələr yalnız ərzaq və dərman preparatlarının bölüşdürülməsi işinə cəlb olunmuşdur. Hazırda onların işi ilk yardım, səhiyyə maarifi və humanitar dəyərlərin yayım kimi sahələrini əhatə edir. Yerli bölmələr həmçinin, müxtəlif sosial fəaliyyətlərə də başlamışlar. Bölmələrdən alınan maliyyə və fəaliyyət hesabatları da yaxşılaşmışdır. Qızıl Aypara Cəmiyyətinin yerli bölmələri öz fəaliyyətlərində iştirak edən qadın və gənclərin sayını artıra bilmişlər. Layihənin ilkin mərhələsində təkcə 128 qadın və 23 gənc iştirak edirdi. Layihənin sonunda isə bu rəqəm artmışdır. Belə ki, 700-dən artıq qadın və 450 gənc profilaktik sağlamlıq, ilk yardım bacarıqlarının təlimi sahəsində Qızıl Aypara Cəmiyyəti ilə birgə çalışmışdır.

-22 nəfər könüllü "İcmalarda ehtiyacların qiymətləndirilməsi", 20 nəfər icma könüllüsü "Sağlamlıq üzrə", 23 nəfər RK işçisi "layihələrin planlaşdırılması və idarə edilməsi" və 18 nəfər RB könüllüsü "Sosial qayğı" üzrə 6 təlim keçərək bilik və bacarıqlarını artırmışlar.

-İcmalar ilə keçirilən tədbirlərdə ümumilikdə 2.500 icma üzvü fəal iştirak etmişdir ki, bu da icmaların Az.QAC-nə olan maraqlarının artırılmasına təkan vermişdir.

**Problemlər**

- Hazırkı layihə çərçivəsində aparılan icma iştiraklı inkişaf üsulu Qızıl Aypara Cəmiyyətinin yerli bölmələri üçün yeni bir üsul idi. Bəzi bölmələrin işçi heyəti üçün bunu qəbul etmək və başa düşmək bir qədər mürəkkəb olmuşdur.
- RB-nin ucqar kəndlərdə yerləşən icmalara səfərlərinin sayı bir qədər azalmış və orada monitorinqi vaxtında keçirmək mümkün olmamışdır. Bunun əsas səbəbi Proqram daxilində Federasiya tərəfindən yanacaq xərclərinin dayandırılması olmuşdur.

## GƏNCLƏR KOMİTƏSİ

**Məqsəd**:

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gənclər Komitəsinin (Az.QAC Gənclər Komitəsi) əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq gənc (uşaqlar, yeniyetmələr, məktəblilər, tələbələr, əlil uşaq və gənclər) insanlar arasında Könüllülük Hərəkatının inkişafı, Beynəlxalq Humanitar dəyərlərinin aşılanması, sülh, qarşılıqlı hörməti və anlaşma ideyalarını geniş şəkildə yaymaq, gənclərin asudə vaxtlarının səmərəli keçməsi məqsədilə, maarifləndirmə, sağlam həyat tərzinin formalaşması və mənəvi rifahının yüksəldilməsi sahəsində fəaliyyətlər həyata keçirməkdən ibarətdir.

**Fəaliyyətlər**:

2008-ci ildə Az.QAC-ın Gənclər Komitəsi zavallı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra humanitar fəaliyyətlər həyata keçirmişdir.

**2008-ci il fevral ayının 2-də** AzQAC-ın Gənclər Komitəsi tərəfindən «Gənclər Günü» münasibətilə Bakı şəhəri, Yasamal rayonunda yerləşən «Ümid yeri» uşaq sığınacağında humanitar tədbir reallaşdırılmışdır. Uşaq sığınacağında keçirilən maraqlı tədbirdə valideyn sevgisindən həmçinin, isti ailə ocağından məhrum olmuş 50 uşağa nahar və şirniyyat süfrəsi açılmış, müxtəlif oyuncaqlar, geyimlər təqdim olunmuş, gənc reper-müğənnilərin iştirakı ilə əyləncəli-musiqi proqramı təşkil edilmişdir. Tədbirdə iştirak edənlər öz çıxışlarında uşaqları və mərasim iştirakçılarını «Gənclər günü» münasibətilə təbrik etmişlər. Cəmiyyətinin Gənslər Komitəsi 2005-ci ildən başlayaraq dəfələrlə «Ümid yeri» uşaq sığınacağında humanitar yardım tədbirləri, seminarlar və müxtəlif qısa müddətli proqramlar həyata keçirmişdir.

**2008-ci il mart ayının 20-də** AzQAC-ın Gənclər Komitəsi «Novruz bayramı» münasibətilə Bakı şəhəri, Əzizbəyov rayonu Şağan kəndində yerləşən 3 №-li uşaq evində əqli və fiziki cəhətdən qüsurlu olan uşaqlar üçün «Novruz Şənliyi» təşkil etmişdir.

Tədbir təşkilatçıları uşaqlarla birgə şənlənmiş, müxtəlif xatirə şəkilləri çəkdirmişlər.

**2008-ci il sentyabr ayının 30-da** Az.QAC Gənclər Komitəsi «Ramazan bayramı»nı böyük təmtəraqla qeyd etmişdir. Az.QAC-ın Gənclər Komitəsi Abşeron rayonu Saray qəsəbəsində yerləşən əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 7 saylı internatda 160 uşaq üçün möhtəşəm bir bayram təşkil etmişdir. Komitə bu bayram şənliyini Cəmiyyətin əsas tərəfdaşı olan «Almalı» marketlər şəbəkəsi ilə birgə həyata keçirmişdir. Tədbirdə internatda məskunlaşmış uşaqlara nahar və şirniyyat süfrəsi açılmış onlara müxtəlif hədiyyələr paylanmışdır. Tədbiri şən və ritmik musiqi nömrələri ilə Azərbaycan estradasının ulduzu Samirə bəzəmişdir. Tədbirdə Az.QAC-nın Gənclər Komitəsinin sədr müavinləri Bayram Vəliyev və Ceyhun İsmayılov, Cəmiyyətin hüquqşunası Günel Quliyeva və digər əməkdaşlar, 7 saylı internatın direktoru Şükür Əhmədov, «Almalı» mağazalar şəbəkəsinin baş ofisinin nümayəndəsi Nəsimi Lətifov iştirak etmişlər. Tədbirdə çıxış edən internatın direktoru Şükür Əhmədov tədbir iştirakçılarını salamlayaraq onları müqəddəs «Ramazan bayramı» münasibətilə təbrik etmiş, Gənclər Komitəsinin neçə ildir ki, müxtəlif bayramlarda internata səfərlər təşkil etməsini və bununla uşaqların əhvalının yüksəldilməsi istiqamətində əhəmiyyətli işlər görməsini vurğulamışdır.

**2008-ci il oktyabr ayının 31-i** Az.QAC-ın Gənclər Komitəsi «Almalı» mağazalar şəbəkəsilə birlikdə «Ahıllar Günü» ilə əlaqədar Mərdəkan qəsəbəsi, Ramin Qasımov 9 ünvanında yerləşən «Müalicə və profilaktika» sanatoriyasında məskunlaşmış 100 nəfər ahıl üçün bayram tədbiri keçirmişdir. Az.QAC rəhbərliyinin iştirak etdiyi tədbirdə cəmiyyətin işçi heyəti, könüllülərinə «Almalı» mağazalar şəbəkəsinin əməkdaşları da qoşulmuşlar. Tədbirin keçirilməsində əsas məqsəd ahıllara diqqət və qayğı göstərmək, onları «Ahıllar Günü» münasibətilə təbrik edərək əhval-ruhiyyələrini yüksəltmək, onlara olan sevgini bir daha nümayış etdirməkdən ibarət olmuşdur. Mərdəkan qəsəbəsində yerləşən «Müalicə və profilaktika» mərkəzində keçirilən tədbirdə ahıllar üçün bayram süfrəsi açılmış, estradamızın bəzi sənətçilərinin iştirakı ilə musiqili-əyləncəli konsert proqramı təşkil edilmişdir, həmçinin, ərzaq bağlamaları paylanmışdır.

**2008-ci il dekabr ayının 29-da** Az.QAC Gənclər Komitəsi «Dünya Azərbaycanlılarının həmrəyliyi günü» və «Yeni il» münasibətilə Bakı şəhəri Əzizbəyov rayonu, Şağan kəndində yerləşən əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 3 saylı uşaq evində humanitar tədbir keçirmişdir. Tədbirin əsas məqsədi uşaq evində məskunlaşmış əqli və fiziki cəhətdən qüsurlu olan 145 nəfər uşağı bayram münasibətilə təbrik etmək, onların mənəvi rifahını qismən də olsa yüksəltmək olmuşdur. Tədbiri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov giriş sözləri ilə açaraq internatın balaca sakinlərini və bütün tədbir iştirakçılarını dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibəti ilə təbrik etmiş, onlara yeni ildə yeni-yeni uğurlar və xoş günlər arzulamışdır. Tədbirdə uşaqlara nahar və şirniyyat süfrəsi açılmış, onlara yeni il hədiyyələri paylanmışdır. Həmçinin, uşaqların mənalı istirahəti üçün musiqili-əyləncəli proqram bəxş edilmişdir. Az.QAC-ın könüllüsü, müğənni Xatunun ifasında rəngarəng musiqi nömrəsi səslənmiş, uşaqlar rəqs edərək şənlənmişlər. Tədbirdə Az.QAC-ın prezidenti,

Milli Məclisin deputatı Novruz Aslanov və cəmiyyətin işçi və könüllüləri, «ADA-Ticarət» QSC-nin İdarə Heyətinin sədri Rəfail Haciyev və Almalı mağazalar şəbəkəsinin əməkdaşları iştirak etmişlər.

# GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

**Məqsəd: AzQAC-də Gənclər və könüllülərin idarəetmə, cəlbolunma və qeydiyyatının yaxşılaşdırılması məqsədilə effektiv gənclər və könüllülər idarəetmə sisteminin inkişaf etdirilməsi.**

## *Treyninq Modul kursları*

**Məqsəd**

Treyninq modulunun hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsip;
- Fəaliyyətlər haqqında;
- Yeni gələn könüllüləri QAC-ın rayon bölməsinin fəaliyyətində iştirak etməyi və iş görməyə həvəsləndirməkdir.

**Fəaliyyətlər**

İl ərzində 1744 nəfər modul treyniniq kursunu dinləmiş, 53 nəfər Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad Gəncə RM-nin könüllülərini isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.

## *Lider Treyninq Kursları*

**Fəaliyyətlər**

7 regional mərkəzin gənclərlə iş üzrə kordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümumilikdə 164 nəfərə lider treyninq kursları keçirilmişdir.

- Lider kimdir?
- Kurs zamanı müxtəlif oyunlar;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Layihə nə deməkdir?
- Layihələrin yazılması
- Partnyorların və donorların axtarışı
- Donorlarla praktiki iş.
- Gəzintilər və s.

## *Uşaq evlərində fəaliyyət göstərən könüllülər üçün sosial təlimlər*

**Fəaliyyətlər**

Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 54 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.

Proqrama əsasən 7 RM-in və hər bir mərkəzin ərazisində yerləşən 3 məktəbdə hər məktəbdə 25 şagird olmaqla 525 nəfər məktəbli üçün « İlk yardım» və Hərəkatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi olaraq 3 mərhələdən ibarət olaraq yarış keçirilmiş, bu yarışlar 1-ci mərhələdə rayonda məktəblərarası, 2-ci mərhələ RM-lər arasında, 3-cü mərhələdə Bakıda yekun yarışlar keçirilmişdir. Yarışda qalib gələn şagirdlər mükafatlandırılmışdır.

Gəncə RM-də məktəblilər və tələbələr üçün İİV və QİÇS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövqəladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək təqdimatlar aparılmışdır. Ümumilikdə 870 nəfər iştirak etmişdir. Bu səpgidə tədbirlərin keçirilməsi gələcəkdə, daha da çox Hərəkata könüllülərin cəlb olunmasına səbəb olacaqdır.

## *Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri*

**Məqsəd**

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

**Fəaliyyətlər**

İl ərzində 1 mərkəzi gənc könüllülər şurasının görüşü keçirilmişdir.

Regional görüşlər:

- Sumqayıt RM-də 1 dəfə
- Mingəçevir RM-də 1 dəfə
- Gəncə RM-də 1 dəfə
- Lənkəran RM-də 1 dəfə
- Bakı RM-də 1 dəfə
- Sabirabad RM-də 1 dəfə

## *Könüllülərin elektron qeydiyyatının inkişaf etdirilməsi*

**Məqsəd**

Ölkə üzrə könüllüləri effektiv şəkildə cəlb etməklə inkişaf etdirmək.

## *Cap materiallarının nəşri*

**Məqsəd**

Maarifləndirmə, yayım materiallarının yeni növünü nəşr etmək və xüsusilə Az.QAC-ın gənc könüllülərin daha yaxşı fəaliyyət göstərilməsinə yardım etmək.
Könüllülərlə işləyərkən onların bacarıq və qabiliyyətlərini dəstəkləmək.

**Fəaliyyətlər**

- Rayon gəncləri, könüllüləri və şöbə tərəfindən 200 plakat, 300 əd broşur, 100 əd. QAC- loqası, 75 əd. mayka, 500 könüllülər üçün qeydiyyat blankı, 50 ədəd modul treyninq qovluqları hazırlanıb könüllülərə paylanılıb. Bu da gənclərin və könüllülərin diqqətini cəlb edir, onları həvəsləndirir.

## *Əlil uşaq evlərində sosial fəaliyyət*

**Məqsəd**

1. Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək.
2. Onları təhsilləndirmək və dərslərinə köməklik göstərmək.
3. Qismən də olsa onların müəyyən qayğılarını həll etmək.

**Fəaliyyətlər**

Şağan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayonlarında yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır:

- uşaqların gəzintisi,
- rəsm,
- toxumaq,
- idman,
- musiqi,
- dərslərinə kömək,
- təsviri incəsənət və s.

Fəaliyyətləri həyata keçirmək üçün ləvazimatlar alınıb uşaq evlərinə və könüllülərə istifadə üçün verilmişdir.

Lənkəran və Şüvalanda yerləşən kimsəsiz uşaq evində, Binəqədi, Kəlbəcər, Xocalı, Laçın, Ağdam rayonlarından olan imkansız ailələrin uşaqları üçün yeni il şənlikləri kecirilmişdir. Tədbirdə 1300 nəfərə yaxın uşaq iştirak etmişdir. Burada uşaqlar üçün gəzintilər, kukla teatırı, kinoteatr, tarixi muzeylərə baxış, park, kafelər, müxtəlif əyləncəli atraksionlara ekskursiya edilmişdir. Sonda uşaqlara hədiyyələr və yemək süfrəsi açılmışdır.

1 İyun «Beynəlxalq Uşaqların Müdafiəsi günü» ilə əlaqədar Lənkəran, Şağan, Sumqayıt uşaq evlərində və çətin tərbiyə olunan uşaq koloniyasında tədbir keçirilmişdir.

Proqram çərçivəsində Sumqayıtda 30 nəfər əlil uşaq üçün avqust ayında dəniz kənarında 1 günlük istirahət təşkil edilmişdir.

15 Sentyabr «Bilik günü» ilə əlaqədar 350 nəfər aztəminatlı ailələrin uşaqlarına dərs ləvazimatları hədiyyə edilmişdir. Lənkəran rayon uşaq evində yaşayan 83 nəfər uşaq üçün tədbir keçirilmişdir. Tədbir kompaniya xarakteri daşıyırdı. Tədbir Sosial iş, İlk yardım, İİV və QİÇS proqramlarını təşkil edirdi.

Tədbirdə əl işlərindən ibarət sərgi, uşaqlar arasında intellektual yarışlar, viktorina keçirilmiş və konsert təşkil olunmuşdur. Sonda 75 nəfərə yemək süfrəsi açılmış, 40 məktəbliyə hədiyyələr bağışlanmışdır.

Proqram çərçivəsində Sumqayıtda 30 nəfər əlil uşaq üçün, Şağan qəsəbəsində isə yerləşən 3 №li əlil uşaq evində 90 nəfər üçün 3 Dekabr «Əlillər günü» ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə konsert proqramı, sərgi, sonda isə uşaqlara süfrə açılıb hədiyyələr təqdim edilmişdir.

Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-rayon bölmələrinin könüllüləri üçün Könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir.

Tədbirlərdə regional mərkəzlərin və rayon könüllüləri, Mərkəzi Gənc Könüllülərin Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə koordinatorları, könüllülər və s. ümumilikdə 2700 nəfər iştirak etmişdir. Proqram aşağıdakı şöbələrin təqdimatlarından ibarət idi:

1-ci hissə

- Gənclər və könüllülər şöbəsinin təqdimatı
- İİV və QİÇS proqramının təqdimatı
- Sosial iş
- Sağlamlıq və qayğı
- İlk yardım
- Beynəlxalq əlaqələr

2-ci hissə

- Qruplarda iş
- Qrupların təqdimatı
- Furşet və diskoteka

**Nailliyyətlər**

- Artıq lider treyninq keçmiş təlimçilər öz regionlarında təlimə başlayıblar. Təlim çox uğurlu nəticələr verir.
- Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşlərinin keçirilməsini könüllülər artıq rayonlarda koordinasiyanın sərbəst şəkildə özləri idarə edirlər.
- Planlaşdırılmış RB –də Gənclər klubunun yaradılması;
- Gələcək planların müzakirəsi;
- Gənclər təşkilatının inkişafı;
- Rayonlarda kiçik sosial layihələrin həyata keçirilməsi.
- Planlaşdırılma;
- Lider Treyninq Modulunun yeniləşdirilməsi və treyninq sistemlərin yaradılması;
- İcmalarla iş;
- Könüllülərin elektron qeydiyyatı RB- geniş inkişafı
- Lənkəran və Gəncə RM-də « Məktəbə qayıdış proqramının» həyata keçirilməsi
- Məktəblərdə «İlk yardım» və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi və fəaliyyəti haqqında məlumatların yayımı.
- 11 sentyabr İlk yardım, 1 dekabr «İİV və QİÇS-lə mübarizə günü», 5 dekabr «Könüllülər günü» ilə əlaqədar RB-də keçirilən tədbirlərə hazırlıq və həyata keçirilməsi və.s

- Çap materialları nəşr olunaraq Rayon bölmələrinin gənclərinə və könüllülərinə paylanıb. Bu da gənclərin və könüllülərin diqqətini cəlb edib, onları həvəsləndirir.
- Hal-hazırda elektron qeydiyyatı Az.QAC Katibliyinin Gənclər şöbəsində, Sumqayıt, Zaqatala, Mingəçevir,İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb. Digər rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyatı blanklarından istifadə olunur. Ancaq gələcəkdə nəzərdə tutulub ki, regionlarda elektron qeydiyyatlardan istifadə olunsun. Hər ay rayon bölmələrindən könüllülərin qeydiyyatının məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatında qeyd olunur. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərilməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir. İl ərzində 1920 nəfər, könüllü üzv qəbul olunmuşdur

## MİNALARA QARŞI MÜBARİZƏ

**Məqsəd**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) Respublikada mina problemlərinin həllində aparıcı təşkilatlardan biri kimi tanınmaq, Respublikada mina və partlamamış hərbi sürsatlardan (PHS) zərər çəkmiş icmalarda «Mina Risklərinin Azaldılması», «Mina Üzrə Maarifləndirmə» (7 cəbhəyanı kənddə «Təhlükəsiz Oyun Meydançalarını» (TOM) quraşdırmaq) işlərini təşkil etmək, «Mina/MPQ (müharibənin partlayıcı qalıqları) Hadisələri və qurbanları və eləcə də Minadan Zərərçəkənlərin Ehtiyaclarına dair Məlumatların Toplanması» üzrə Milli Cəmiyyət və ANAMA (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik) arasında mövcud olan rəsmi əməkdaşlıq sənədinə əsasən fəaliyyəti uğurla davam etdirmək, icmalar və ANAMA arasında vasitəçi rol oynamaq, mina/MPQ-lərə qarşı fəaliyyət göstərən digər yerli və beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq etmək.

**Fəaliyyət:**

***Mina Risklərinin Azadılması***

2008-ci ildə Az.QAC Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) texniki, Beynəlxalq Olimpiya Komitəsinin maliyyə dəstəyi ilə cəbhə yaxınlığında yerləşən, mina və PHS problemləri ilə üzləşən daha 7 kənddə uşaqları mina və PHS-lə qarşılaşma risklərindən qorumaq məqsədilə «TOM» lar quraşdıraraq icmanın istifadəsinə vermişdir.

Layihənin əsas məqsədi uşaqları oynamaq üçün təhlükəsiz sayılan oyun meydançaları ilə təmin edərək onların mina/PHS-lə qarşılaşma risklərini azaltmaqdır. 2008-ci ildə «TOM» layihəsi aşağıdakı cəbhəyanı rayonlarda həyata keçirilmşdir:

Qazax rayonu- Bala Cəfərli kəndi;
Ağstafa rayonu- Saloğlu kəndi;

Gədəbəy rayonu- Zamanlı, Hacılar kəndləri;
Ağdam rayonu- Zəngişalı, Əfətli kəndləri;
Füzuli rayonu-Mahmudlu – 2 kənd

*Mina Üzrə Maarifləndirmə*

2008-ci ildə Az.QAC tərəfindən həyata keçirilmiş «TOM» layihəsində (5 rayondan 7 kənddə) hər bir oyun meydançasında minalar və PHS-lər əleyhinə üzərində şüarlar yazılmış və rəsmlər çəkilmiş müxtəlif maarifləndirici lövhələr quraşdırılmışdır. Bu lövhələr vasitəsilə uşaqlar mina təhlükəsi barədə bilavasitə xəbərdar ola bilərlər.

*AzQAC və ANAMA arasında əməkdaşlıq*

2008-ci il ərzində «Mina/MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması» üzrə fəaliyyətləri həyata keçirmək üçün 2007-ci il dekabr ayının 18-də BQXK –nın təşkilatı dəstəyi ilə Bakı şəhərində Beynəlxalq Mətbuat Mərkəzində Az.QAC və ANAMA arasında rəsmi Razılaşma Memorandumu imzalanmışdır. Razılaşmaya əsasən, AzQAC və Beynəlxalq Qızıl Xaç Komitəsininin (BQXK) təşkilatçılığı ilə ANAMA-nın bu fəaliyyətə məsul nümayəndələri 2008-ci ilə AzQAC-nın Minalara Qarşı Mübarizə Proqramının koordinatoruna və proqrama cəlb olunmuş Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göy-Göl, Goranboy, Tər-Tər, Ağdam, Ağcabədi və Füzuli Rayon Bölmə sədrlərinə bu fəaliyyət istiqamətində xüsusi treyninq-seminar keçirilmişdir. 2008-ci ilin yanvar ayında razılaşmada göstərildiyi kimi ANAMA AzQAC-ın Mina/MPQ hadisələri və qurbanları, eləcə də minadan zərər çəkmiş şəxslərin ehtiyacları haqqında məlumatların toplanması üzrə xüsusi hazırlanmış sorğu blankları ilə təmin etmişdir.

ANAMA 2008-ci il ərzində Azərbaycan ərazisində baş vermiş mina/MPQ hadisələri haqda ilkin məlumatı Az.QAC-la bölüşmüş, Az.QAC isə öz növbəsində xüsusi təlimatlandırılmış nümayəndələri vasitəsilə mina qurbanına çevrilmiş və zərərçəkmiş şəxslər haqda ANAMA-nın buna dair tərtib etdiyi sorğu blanklarını dolduraraq qarşı tərəfə təqdim etmişdir. ANAMA Az.QAC-nın Minalara Qarşı Mübarizə sektorunu müntəzəm olaraq baş vermiş hadisələr haqda məlumatlandırmışdır.

5 dekabr 2008-ci il tarixdə Az.QAC və ANAMA nümayəndələri arasında keçirilən görüşdə yuxarıda göstərilən birgə fəaliyyətin yekunlarına dair müzakirələr aparılmış və təklif olunmuşdur ki, 2009-cu ildə də tərəflər bu əməkdaşlığı davam etdirsinlər.

2008-ci il 18 dekabr tarixndə Az.QAC-nın prezidenti, Milli Məclisin Deputatı cənab Novruz Aslanov və ANAMA-nın direktoru cənab Nazim İsmayılov arasında yenidən 2009-cu il üçün «Mina/MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan zərər çəkmiş Şəxslərin ehtiyacları haqqında məlumatların toplanması» üzərə rəsmi Razılaşma Sənədi imzalanmışdır.

*KİV-lə iş*

Az.QAC-nın mətbuat orqanı olan «Yeni Təfəkkur» qəzeti və Milli Cəmiyyətin rəsmi veb-səhifəsi (www.redcrescent.az) vasitəsilə görülən işlər barədə geniş ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. «TOM»ların rəsmi açılış mərasimlərinin keçirilməsi barədə məlumatlar BQXK-nın də rəsmi veb-səhifəsində (www.icrc.org) də işıqlandırılmışdır.

*Digər əməkdaşlıq*

Az.QAC Minalara Qarşı Mübarizə proqramının koordinatoru mütəmadi olaraq BQXK –nın Azərbaycandakı Nümayəndəliyində BQXK-nın mina məsələləri üzrə Regional Məsləhətçisi cənab Herbi Elmazi ilə görüşlər keçirmiş, müzakirələr aparmışdır.

«TOM» layihəsi və digər mina fəaliyyətləri ilə əlaqədar olaraq il ərzində Az.QAC Minalara Qarşı Mübarizə Proqramının koordinatoru BQXK, ANAMA, AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyi), BAMF (Beynəlxalq Avrasiya Mətbuat Fondu), UNİCEF və s. Təşkilatlarla görüşlər keçirmiş, seminar, treyninq və konfranslarda iştirak etmişdir.

*Beynəlxalq görüşlər*

2006-ci il iyul ayının 6-dan 10-dək BQXK-nın dəstəyi ilə Yaxın Şərq ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin mina fəaliyyətləri sahəsində çalışan nümayəndələri üçün Livanın Tir şəhərində regional görüş keçirilmişdir. Görüşün əsas məqsədi BQXK-nın Azərbaycan, İran, İraq, İordaniya Krallıcğı, Livan və Fələstin Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri ilə minalara qarşı mübarizə sahəsində apardığı fəaliyyətləri təhlil etmək və bu sahədə gələcək əməkdaşlığın perspektivləri barədə müzakirələr aparmaq olmuşdur. Görüş zamanı adları çəkilən hər bir ölkənin Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi ölkəsində minalar əleyhinə həyata keçirdikləri fəaliyyətlər haqda geniş prezentasiyalar etmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi Bayram Vəliyev də Milli Cəmiyyətin BQXK ilə Azərbaycanda keçirdiyi fəaliyyətlərdən söhbət açmışdır.

# HUMANİTAR YARDIM

**Məqsəd**:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha – xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında bir-birlərinə köməklik etməsini aşılamaq.

**Fəaliyyət**:

Azərbaycan QAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif səpkili müraciətlər daxil olur. Milli Cəmiyyət humanist prinsipləri rəhbər tutaraq, həmişə olduğu kimi müraciətlərə fərdi qaydada baxır, hər bir müraciət barəsində müvafiq qərar qəbul olunur və Cəmiyyətin daxili imkanları hesabına yardım göstərilir.

Azərbaycan QAC prezidenti cənab N. Aslanovun təsdiq etdiyi cədvələ uyğun olaraq, Cəmiyyətin rəhbərliyinin və Katibliyin humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilir. Rayon bölmələrində belə qəbulların keçirilməsi Katibliyin Humanitar Yardım şöbəsi tərəfindən daim tövsiyə olunur. Son illər bu qəbulların keçirilməsi bir çox yerli bölmələrin fəaliyyətində öz əksini tapmışdır.

Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların rayonlar üzrə sayının müəyyənləşdirilməsi və siyahıların tərtibi işi daim davam etdirilir. Aztəminatlıların müəyyənləşdirilməsi və qeydiyyata alınması yerli bölmələrin əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Humanist prinsipləri rəhbər tutaraq həmişə olduğu kimi, bu gün də əhalinin aztəminatlı təbəqəsinə, xroniki xəstələrə ahıl - tənhalara və digər yardıma ehtiyaci olan insanlara öz imkanları daxilində humanitar yardım göstərir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas fəaliyyət prioritetlərindən biri də Cəmiyyətin mümkün olan bütün imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara tibbi və sosial xidmət göstərməkdir. Bakı şəhərində 4000 nəfərə yaxın yardıma və tibbi-sosial xidmətə ehtiyacı olan ahıl tənha və xroniki xəstə rayon bölmələrində qeydiyyatdadır.

Bakı şəhərində yaşayan bir qrup daha çox yardıma və tibb-sosial qayğıya ehtiyacı olan zavallıların rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədi ilə 01 avqust 2008-ci il tarixdən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruz Aslanovun şəxsi maliyyə dəstəyi və təşəbbüsü ilə «Mərhəmət sorağında» adlı pilot layihənin həyata keçirilməsinə başlanmışdır.

Layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, rayon bölmələrinin əməkdaşlarının, tibb bacılarının və könüllülərin gücünü səfərbər edərək tibbi- sosial xidmət sahəsinə yönəltməkdir.

«Mərhəmət sorağında» pilot layihə hələlik Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə ümumilikdə 30 zavallı daxil olmaqla onlara zəruri ərzaq və tibbi- sosial xidmət üzrə yardım göstərilir.

Rəhbərlik tərəfindən layihənin həyata keçirilməsi üzrə cavabdeh şəxslərin siyahısı təsdiq edilmiş, icra mexanizmi, humanitar yardımın miqdarı və tibbi – sosial xidmətin təsnifatı artıq fəaliyyətdə olan layihədə öz əksini tapmışdır.

Qeyd edək ki, bu layihəyə əsasən, cənab Novruz Aslanovun şəxsi vəsaiti hesabına ötən beş ay müddətində (avqust- dekabr) 142 nəfər zavallı insana 1420 manat məbləğində ərzaqla yardım edilmiş, müxtəlif tibbi- sosial xidmət göstərilmişdir.

Cəmiyyətin rəhbərliyi tərəfindən bu humanitar layihənin əhatə dairəsinin yaxın vaxtlarda daha da genişləndirilməsi nəzərdə tutulur.

Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılır.

Azərbaycan QAC ilə hesabat ilində səmərəli əməkdaşlıq edən İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının, «COUNTERPART» Beynəlxalq

Humanitar Təşkilatın Azərbaycandakı Nümayəndəliyinin və s. təşkilatların işini xüsusi qeyd etmək yerinə düşər.

Bu müddət ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 419 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müanə keçməsi üçün köməklik göstərilmişdir. Göstərilmiş təmənnasız tibbi müanənin dəyəri 23045 manat təşkil edir.

COUNTERPART» Beynəlxalq Humanitar Təşkilatın Azərbaycandakı Nümayəndəliyi tərəfindən aztəminatlı insanlara paylanmaq məqsədi ilə 2000 ədəd gödəkcə və 2500 ədəd şarf ayrılmışdır və s.

Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur.

Hesabat dövründə Azərbaycan QAC-in yerli bölmələri tərəfindən ümumilikdə 100-dən artıq belə humanitar - xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı insan, valideyn qayğısından məhrum olmuş uşaq iştirak etmiş, onlara müxtəlif yardımlar paylanmış, süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

**Nailiyyət**

Hesabat ilində tənha qocalara, xroniki xəstələrə, aztəminatlı ailələrə, qaçqın, məcburi köçkünlərə və fövqəladə hallar zamanı zərər çəkmiş 38550 nəfər zavallı insana 388475.77 manat məbləğində ərzaq, dərman, gigiyenik dəstlər, yataq dəstləri, paltar, məişət avadanlıqları, təmənnasız tibbi kartlarla, mətbəx və məktəbli ləvazimatları, və s. ilə yardım göstərilmişdir. Bu yardımlar müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir:

- İanə qutularından, təmənnasız ayrılmış tibbi müanə kartları, şəxsi vəsait və digər mənbələrdən daxil olan vəsaiti hesabına 1207 nəfərə 33634.67 manat məbləğində;
- BQX və QA Cəmiyyətləri Federasiyasının və digər daxil olmalar hesabına 10729 nəfər təbii fəlakətdən zərər çəkmiş insanlara, məcburi köçkünlərə, aztəminatlı ailələrə və s. 108502,10 manat məbləğində;
- -QAC Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına 26614 nəfər zavallıya 246339 manat məbləğində humanitar yardımlar edilmişdir.

| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (manat) |
|---|---|---|---|---|
| İanə qutuları təmənnasız tibbi kartlar və şəxsi vəsaitlər hesabına | Ərzaq, paltar,müxtəlif humanitar tədbirlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, valideyn qayğısından məhrum olmuş uşaqlar | 1207 | 33634, 67 |
| Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər mənbəələrdən daxil olan vəsaitlər və yardımlar hesabına | Məişət avadanlıqları, müxtəlif mebel, yataq dəstləri, gigiyenik dəstlər və s. | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər | 10729 | 108502,10 |
| QAC Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbədən daxil olan vəsaitlər hesabına | Ərzaq, dərman, məişət və sanitar gigiyenik dəstlər | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər | 26614 | 246339 |
| | | **Cəmi**: | 38550 | 388475.77 |

**Problemlər**

1.Humanitar Yardım məqsədi ilə lazım olan maliyyə vəsaitinin kifayət qədər olmaması.
2. Humanitar missiyanın daha keyfiyyətlə yerinə yetirilməsi üçün şöbənin nəqliyyat vasitəsinə ehtiyacı olması.

# AXTARIŞ XİDMƏTİ

**Məqsəd**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyət**

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilir:
- II Dünya müharibəsi zamanı itğin düşənlərin axtarışı
- Miqrasiya ilə bağlı axtarış
- Aliment ödəməyənlərin axtarışı
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi

## ***KİV ilə əməkdaşlıq***

2008-cı il **«Vışka» qəzetində** Axtarış Xidmətinin fəaliyyətini işıqlandıran 12 məqələ çap edilmişdir.

Rusiyanın «ORT» telekanalında yayımlanan «Jdi menya» verilişi ilə əməkdaşlığımız telefon və elektron poçt vasitəsilə davam edir.

## ***Dövlət strukturları ilə əməkdaşlıq***

- Az.QAC Axtarış Xidməti birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1) Daxili İşlər Nazirliyi
2) Middi Təhlükəsizlik Nazirliyi
3) Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi
4) Bakı İcra Hakimiyyəti
5) Respublika Prokurorluğu
6) Hərbi Komissarlıq
7) Qaçqınlar üzrə Ali Komissarlıq
8) Qaçqın və Məcburi köçkünlər üzrə Dövlət Komitəsi.
9) Ədliyyə Nazirliyi

**Daxili görüşlər**.

Ətraflı Məlumatların Toplanması proqramının koordinatoru tərəfindən keçirilmiş görüşlərdə Axtarış Xidməti fəal iştirak etmiş, müzakirələr və lazımi məlumatlar əldə edilmişdir.

Ətraflı Məlumatların Toplanması proqramına dair iki həftəlik treyninqdən sonra, qaynar telefon xətti işə başladı. Bu müddət ərzində 162 telefon zəngləri qəbul edilmişdir. Həmçinin, elektron bazası tərtib edilmişdir.

Bütün müraciət edənlərə qısa və konkret məlumatlar verilmiş və onların bütün sualları cavablandırılmışdır.

**Digər görüşlər**.

23-26 sentyabrda Rusiya Qızıl Xaç Cəmiyyətinin dəvəti ilə Sankt-Peterburq şəhərində Milli Cəmiyyətlərin Axtarış Xidmətləri rəhbərlərinin görüşü keçirilmişdir. Görüşdə hal-hazırda axtarışla

bağlı vacib suallar müzakirə edilmiş və aliment ödəməyənlərin axtarışı ilə bağlı müraciətləri qəbul etməmək qərara alınmışdır. Qərar bununla əsaslanır ki, bu işlə bağlı dövlət strukturları məşğuldur.

### *Regional Mərkəz /Rayon Bölməsi*

Hər ay **Regional Mərkəz** koordinatorları ilə görüşlər keçirilir.

- AX-ti barədə informasiya yayımını gücləndirmək, ayrı-ayrı sənədlərə dair konsultasiya və texniki məsləhətlər verilir.
- Ailə göndərişlərinin yığılması və göndərilməsi
- Aylıq hesabatların qəbulu

Hər bir Regional Mərkəzə rüblük hesabatın hazırlanması üçün tərtib edilmiş şablon variant verilmişdir.

**2008-cı il ərzində daxil olmuş sorğular –** 82
**Açılmış işlər**

**Azərbaycan daxili** - 48

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 17 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 14 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 7 |
| Münaqişə zamanı itgin düşənlərin axtarışı | 5 |
| Miqrasiyaya dair sənədlərin axtarışı | 2 |
| Repressiya | 3 |
| Cəmi: | 48 |

**Xaricdə** - 34

| | |
|---|---|
| Miqrasiyaya dair | 32 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 |
| Münaqişə ilə bağlı sənədlərin axtarışı | - |
| Miqrasiyaya dair sənədlərin axtarışı | - |
| Münaqişə nəticəsində itgin düşənlərin axtarış | - |
| Ailə məktubu | 1 |
| **Cəmi:** | |

**2008-cı il ərzində bağlı işlər –** 154

**Azərbaycan daxili -** 102

| | | |
|---|---|---|
| Miqrasiyaya nəticəsində itgin düşənlərin axtarışı | 69 (mənfi) | 16 (müsbət) |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 38 | 17 |
| Münaqişə nəticəsində itgin düşənlərin axtarışı | 1 | 2 |
| II Dünya müharibəsi zamanı sənədlərin axtarışı | 5 | 2 |

| | | |
|---|---|---|
| Münaqişə ilə bağlı sənədlərin axtarışı | - | 3 |
| Repressiya | 2 | 1 |
| Cəmi: | 77 | 25 |

**Xaricdə** - 52

| | | |
|---|---|---|
| Miqrasiyaya nəticəsində itgin düşənlərin axtarışı | 19 (mənfi) | 17 (müsbət) |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 | 2 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 2 | - |
| Münaqişə ilə bağlı sənədlərin axtarışı | 7 | 1 |
| Ailə məktubu | - | 3 |
| Cəmi: | 29 | 23 |

2008-**cı ildə Regional Mərkəzlərdən daxil olan sorğular**

**Sumqayıt RM** - 3

**Mingəçevir RM** - 4

**Lənkəran RM** -1

**Naxçıvan RM** - 1

**Gəncə RM** - 3

## FANDREYZİNQ VƏ GƏLİR GƏTİRMƏ

**Məqsəd**

Az.QAC–nin maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə maddi bazasını möhkəmləndirmək və daha geniş miqyasda humanitar yardımlar göstərməsini təmin etmək.

**Fəaliyyətlər**

İl ərzində Bakı, Sumqayıt və Gəncə şəhərlərinin müxtəlif yerlərində 65 ədəd ianə qutularından 12997.24 AZN həcmində vəsait toplanıb.

«İlk Yardım» üzrə pullu kurslardan 1940.0 AZN, Şəxsi ianələrdən isə8700.0 AZN vəsait daxil olub.

Ümumi Az.QAC-nin Katibliyinin hesabına gəlirgətirmə və fandreyzinq fəaliyyəti nəticəsində 21734.24 AZN daxil olunub.

Şəxsi ianə:

* 16 zavallı ailəyə hər ay hər birinə 30 AZN dəyərində ərzaq bağlamaları verilib.
* Qurban bayramı ilə əlaqədar 150 kq-lıq qoyun əti Az.QAC Nərimanov, Kəlbəcər və Xocalı rayon bölmələrinin geydiyyatında olan imkansız ahıl insanlara paylanılıb.

**İş prosesi**:

Az.QAC–nin fandreyzinq siyasəti hazırlanıb və 03 dekabr 2008-ci il tarixində Rəyasət heyətinin iclasında təsdiq olunub. Həmin iclasın 10 №--li protokolu əsasında Fandreyzinq şöbəsi yaradılıb və hal hazırda 2 nəfər işçisi fəaliyyət göstərir.

Toplanan vəsaitlərin xərclənməsi:

İl ərzində internatlarda məskunlaşan uşaqlara - 584 nəfərə
aztəminatlı 210 ailəyə zəruri yardımlar edilib.

## FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

**Məqsəd**: Fövqəladə hallara hazırlıq, ona cavab vermək və onun təsirini azaltmaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını artırmaq

**Fəaliyyətlər**:

*İşçilərin və Mobil könüllü dəstələrin (MKD) təlimləndirilməsi üzrə:*

- Az.QAC-ın 6 Regional Mərkəzində (RM) işçilərə və MKD üzvlərinə «Fövqəladə Halların (FH) İdarə Olunmasının Təqdimatı və FH-da Ehtiyacların Qiymətləndirilməsi» treyninqi keçirilmişdir.

| Tarix | Rayon | İştirakçılar | Sayı |
|---|---|---|---|
| 28-29.01.08 | Sabirabad | Bölmə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 15 nəfər |
| 21-22.10.08 | Lənkəran | Lənkəran və Sabirabad RM koordinatorları, MKD üzvləri | 31 nəfər |
| 06-07.11.08 | Mingəçevir | Gəncə və Mingəçevir RM koordinatorları, MKD üzvləri | 30 nəfər |
| 23-24.12.08 | Sumqayıt | Bakı və Sumqayıt RM koordinatorları, MKD üzvləri | 32 nəfər |

- 28-29 Yanvar 2008-ci il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi Cəmiyyətin Sabirabad Regional Mərkəzində Cəmiyyətin 15 əməkdaşı və könüllülərinin iştirakı ilə «Fövqəladə Halların (FH) İdarə Olunmasının Təqdimatı və FH-da Ehtiyacların Qiymətləndirilməsi» mövzusunda 2 günlük təlim keçirmişdir.
- 21-22 Oktyabr 2008-ci il tarixdə Lənkəran RM-də Sabirabad və Lənkəran RM-nin MKD üzvləri üçün «Fövqəladə Halların (FH) İdarə Olunmasının Təqdimatı və FH-da Ehtiyacların Qiymətləndirilməsi» mövzusunda treyninq keçirilmişdir.
- 06-07 Noyabr 2008-ci il tarixdə Mingəçevir RM-də Gəncə və Mingəçevir RM-nin MKD üzvləri üçün «Fövqəladə Halların (FH) İdarə Olunmasının Təqdimatı və FH-da Ehtiyacların Qiymətləndirilməsi» mövzusunda treyninq keçirilmişdir.
- 23-24 Dekabr 2008-ci il tarixdə Sumqayıt RM-də Bakı və Sumqayıt RM-nin MKD üzvləri üçün «Fövqəladə Halların (FH) İdarə Olunmasının Təqdimatı və FH-da Ehtiyacların Qiymətləndirilməsi» mövzusunda treyninq keçirilmişdir.

*Təchizat üzrə:*

-  Anbarın təmiri məqsədilə görüləcək işlərin qiymətləndirilməsi aparılıb və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına (BQX/QACF) təqdim edilmişdir. Bundan əlavə təmir məqsədilə inşaat-təmir şirkəti cəlb olunaraq ilkin eskizlər hazırlanmışdır.
-  Yanvar ayında 7 Regional Mərkəzin hər birinə könüllülərin cəlb edilməsi üçün 5 ədəd şahmat taxtası alınmışdır.
-  Mərkəzi anbarda rəflər hazırlanmış müvafiq mallar bu rəflərdə yerləşdirilmişdir.

***<u>Qarşılıqlı əməkdaşlıq üzrə:</u>***

-  Proqram koordinatoru Elşən Səlimzadə 2-6 Mart tarixlərində Budapeştdə «Regional Fəlakətlərə Cavabvermə» ilə bağlı seminarda iştirak etmişdir. Seminarın əsas məqsədi fövqəladə hallara cavabvermə proqramının koordinatorlarının fövqəladə hallar zamanı sağlamlığın qorunması, sığınacaqların yaradılması, ECHO-nun fondları, su/sanitariya ilə bağlı problemlərin aradan qaldırılması, xilasetmə tədbirlərinin həyata keçirilməsi sahələrində biliklərini artırmaqdan, həmçinin, Regional Fövqəladə Hallar planı, gələcək əməkdaşlıq, koordinasiya, Milli Cəmiyyətlərin Fövqəladə Hallara Cavabvermə fəaliyyətləri və 2008-ci ildə regionda həyata keçiriləcək müxtəlif treyninq və fəaliyyətlərlə bağlı müzakirələrin aparılmasından ibarət olmuşdur.

-  22 may 2008-ci il tarixdə Azərbaycan İnşaat və Memarlıq Universitetində «Fövqəl» Assosiasiyası tərəfindən təşkil olunmuş «Respublikamızda Fövqəladə Hallar üzrə peşəkar kadrlara tələbat: mövcud yerli imkanlar və Saziş ölkələri ilə təcrübə mübadiləsinin təşkili» mövzusunda dəyirmi masa keçirilmiş və FHHC şöbəsinin əməkdaşları həmin dəyirmi masada iştirak etmişlər.

-  İyunun 12-də Az.QAC-ın Baş Qərargahında FHHC şöbəsinin əməkdaşları ilə OXFAM-ın regional əlaqələndiricisi Kitka Qoyol, «Sfera» layihəsinin Türkiyə üzrə koordinatoru Nuran Kızılkan ilə görüşü keçirilmişdir. Görüşün əsas məqsədi Az.QAC-ın resursları və «Sfera» layihəsi kitabının Azərbaycan dilinə tərcümə olunmuş variantı barədə fikir mübadiləsi aparmaq olmuşdur.

-  İyunun 13-də FHHC şöbəsinin müdiri Valeh Məhərrəmov və şöbənin assistenti Faiq Tahirli «Hyatt Regency» hotelinin iclas zalında təşkil olunmuş «Sfera» layihəsinin Azərbaycan dilinə tərcümə olunmuş variantı olan «Humanitar xartiya və təbii fəlakət, qəza, münaqişə və fövqəladə hallar zamanı göstərilən yardımın minimal standartları» kitabının təqdimat mərasimində iştirak etmişlər.

-  Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibinin müavini Elşən Səlimzadə avqustun 14-dən sentyabrın 5-dək «Regional İş Birliyi Proqramı» çərçivəsində Gürcüstanda ezamiyyətdə olmuşdur. Ezamiyyətin məqsədi qonşu Gürcüstan Respublikasında baş vermiş silahlı münaqişə zamanı zərər çəkmiş zavallı insanlara humanitar yardım etməkdən ibarət olmuşdur.

-  Sentyabr və oktyabr aylarında GTZ-nin (German Technical Cooperation) Bakıdakı Nümayəndəliyi ilə görüş keçirilmişdir. Görüşdə GTZ Respublikanın Şəki-Zaqatala regionunda «Fəlakət riskinin azaldılması» üzrə layihənin həyata keçirilməsinə başladığını və bu sahədə Az.QAC və Fövqəladə Hallar Nazirliyi (FHN) ilə əməkdaşlıq etmək niyyətində olduğunu bildirmişdir. AzQAC tərtib etdiyi «İmkanlığın və imkansızlığın qiymətləndirilməsi» (İİQ) məcmuəsini onlarla bölüşmüş və bu layihənin həyata keçirilməsində İİQ məcmuəsinin istifadə olunmasının faydası barəsində GTZ nümayəndələrinə məlumat vermişdir. Tərəflər bu əməkdaşlığın çox böyük əhəmiyyət kəsb etdiyini bildirmiş və gələcək əməkdaşlığın növbəti addımları müzakirə olunmuşdur.

-  Noyabr ayında tərəfdaşlarla planlaşdırılmış növbəti görüş OXFAM təşkilatı ilə keçirilmişdir. Görüşdə OXFAM fövqəladə halların idarə olunmasında, xüsusilə də riskin qiymətləndirilməsi sahəsində Az.QAC ilə əməkdaşlığının davam etdirilməsində maraqlı olduğunu, Az.QAC isə öz növbəsində bu sahədə, xüsusilə də İİQ-də böyük təcrübə və biliyə malik olduğunu və bu sahədə

OXFAM ilə hər cür əmkdaşlığa hazır olduğunu bildirmişdir. Görüşdə yeni mikro İİQ layihəsinin birgə yerinə yetirilməsi üçün müzakirələr aparılmışdır.

- FHHC şöbəsinin assistenti Faiq Tahirli dekabr ayının 1-dən 4-nə qədər Budapeştdə keçirilən Avropa və Cənubi Qafqaz ölkələrinin Qızıl Aypara və Qızıl Xaç Milli Cəmiyyətləri üçün İT və Telecom (İnformasiya Texnologiyası və telekommunikasiya) üzrə təlimdə iştirak etmişdir.Təlimdə məqsəd İT və Telekommunikasiya üzrə təlim keçmiş mütəxəssislər qrupunu yaratmaq və bu sahə üzrə bilik və vərdişlərin həm regionda fövqəladə hallar zamanı, həm də Milli Cəmiyyətlərin öz gündəlik işlərində istifadə etməkdən ibarət olmuşdur.

***Müxtəlif fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:***

- 2008-ci il ərzində Az.QAC tərəfindən müxtəlif fəlakətlərdən zərər çəkmiş 408 nəfərdən ibarət 78 ailəyə humanitar yardım göstərilmişdir. Bunlar: yataq ləvazimatları, gigiyenik dəstlər, mətbəx ləvazimatları və digər məişət əşyalarıdır.
- 2008-ci ilin may-iyun aylarında Küveyt Qızıl Aypara Cəmiyyəti tərəfindən maliyyələşdirilən 4742 qutu ərzaq yardımı Naxçıvanda 800, Əzizbəyovda 800, Nərimanovda 600, Gəncədə 542, İsmayıllıda 800, İmişlidə 600, Sumqayıtda 600 ailəyə paylanılmışdır.
- BP (British Petroleum) şirkəti tərəfindən göndərilən 11429,00 manatlıq istifadə edilmiş mebel hissələri sonradan imkansız şəxslərə paylanmaq üçün Az.QAC-ın Rayon Bölmələrinə verilmışdır

| № | Reg. Mərkəz | Ailələrin sayı | Neçə nəfər | Məbləğ | Mənbə |
|---|---|---|---|---|---|
| 1 | **Bakı Mərkəzi anbar** | 40 | 191 | 11080,39 | Az.QAC |
| 2 | **Mingəçevir** | 12 | 58 | 2591,72 | Az.QAC |
| 3 | **Lənkəran** | 11 | 89 | 3233,44 | Az.QAC |
| 4 | **Gəncə** | 9 | 32 | 615,00 | Az.QAC |
| 5 | **Sabirabad** | 6 | 38 | 2380,55 | Az.QAC |
| | | *78* | *408* | *19901,10* | |

**Nailiyyətlər**

- 87 MKD üzvü «Ehtiyacların qiymətləndirilməsi», «Fəlakət yardımları zamanı davranış qaydaları», «Qızıl Xaç və Qızıl Aypara üçün fəlakət yardımları zamanı prinsip və qaydalar», «Fəlakətin İdarə edilməsi və Fəlakətin İdarə edilməsində termin və anlayışlar» haqqında təlimlər almışlar.
- FHHC şöbəsinin assistenti Faiq Tahirli dekabr ayının 1-dən 4-nə qədər Budapeştdə keçirilən Avropa və Cənubi Qafqaz ölkələrinin Qızıl Aypara və Qızıl Xaç Milli Cəmiyyətləri üçün İT və Telecom (İnformasiya Texnologiyası və telekommunikasiya) üzrə təlimdə iştirak edərək RDRT-nin üzvü olmuşdur.
- Fövqəladə Hallar sahəsində OXFAM və GTZ təşkilatları ilə əməli əməkdaşlıq gücləndirilmişdir.
- Cənubi Qafqaz, Mərkəzi Asiya və Türkiyə ilə fövqəladə hallar üzrə regional əməkdaşlıq müvəffəqiyyətlə davam etdirilmişdir.

**Problemlər**

- Fövqəladə hallara hazırlıq və cavabvemə üzrə milli planın olmaması
- Hələ də xarici donorlardan olan asılılıq
- Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması
- Telekommunikasiya üzrə mütəxəssisin olmaması
- Nəqliyyat vasitəsinin olmaması

## Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş insanlar haqqında Ətraflı Məlumatların Toplanması

Lahiyə, 14 aprel 2008-ci il tarixində əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlar üzrə Dövlət komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında bağlanan memorandum müqaviləsinə əsasən Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilir.

**Məqsəd**. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş insanların taleyinə aydınlıq gətirmək

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təlim keçmiş könüllüləri itkin düşmüş vətəndaşlarımızın ailələrinə baş çəkirlər və tam humanitar məqsədlə onların ailələrindən itkin düşmüş insan haqqında ətraflı məlumatlar toplayırlar.

Bu günədək Qızıl Aypara Cəmiyyətinin 18 nəfər könüllüsü Bakı, Sumqayıt, Abşeron rayonlarında yasayan ailələrdən 900-dən artıq itkin düşmüş insan haqqında sorğu anketini doldurmuş və Beynəlxalq Qızıl Xaç Komitəsinə təhvil vermişdir. 2009-cu ilin Iyul ayınadək bu bölgə üzrə məlumatların toplanması işi yekunlaşdırılacaq. Gələcəkdə insan qalıqlarının aşkar edilməsindən sonra şəxsiyyətin müəyyən olunması prosesində toplanmış ətraflı məlumatlardan istifadə olunacaqdır.




## MALİYYƏ

Gəlirlərin təhlili göstərir ki, Az.QAC üzrə ümumi gəlirlərin azalması Beynəlxalq donorlar üzrə gəlirlərin azalması hesabına olmuşdur. Beynəlxalq donorlar üzrə gəlirlərin azalması əsasən Beynəlxalq Federasiyasının Azərbaycan Nümayəndəliyi tərəfindən maliyyəşdirilən tədbirlər üzrə müşahidə olunur. Belə ki, Beynəlxalq Federasiya üzrə 2008-ci ildə gəlirlərin 7 % təşkil edir.

Bununla yanaşı qeyd etməliyik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyyəşdirilən tədbirlər 2008-ci ildə 95108,33 min manat təşkil edib və bu gəlirlərin 6 %-dir.

Hesabat dövründə əvvəlki ilə nisbətən dövlət büdcəsi hesabına maliyyəşmənin həcmi artmışdır və gəlirin 34 %-ni təşkil edir. Artım 2007-ci ilə nisbətən 39757 manat təşkil edib.

Hesabat dövründə ianə qutularından yığılan və ilk yardım kurslarından gələn gəlirlər 2007-ci ilə nisbətən 33706,94 manata artmışdır və müvafiq olaraq gəlirlərin 34 % təşkil edib.

Hesabat məlumatlarına görə respublikada daxili gəlirlər, xüsusilə rayon, (şəhər), sahə bölmələrində yığılan üzvlük haqqlarının həcmi 2008-ci ildə 2007-ci ilə nisbətən 192305 manata artmışdır. Rayon (şəhər) bölmələrində gəlirlərin artması nəticəsində, İcra Katibliyinə köçürülən vəsaitlər üzrə maliyyə planlarını yerinə yetirilən təşkilatların sayı azalmışdır. Əgər 2007-ci ildə İcra Katibliyinə vəsaitin köçürülməsi üzrə planlarını 54 təşkilat yerinə yetirmişdirsə, 2008-ci ildə maliyyə planlarını yerinə yetirən təşkilatların sayı 37 olmuşdur.

Bununla yanaşı, 2008-ci ildə geridə qalanlar Xaçmaz, Xızı, Qubadlı, Hacıqabul, Saatlı, Gəlilabad, Lerik, Yardımlı, Gəncə, Samux, Göy-göl, Daşkəsən, Bərdə, Tər-tər RB.

Bildiyiniz kimi Beynəlxalq Federasiyasının Azərbaycan Nümayəndəliyindən və Beynəlxalq Qızıl Xaç Komitəsindən daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmişdir.

Az.QAC hesabına edilən yardımlar ildən ilə artır və 2005-ci ilə nisbətən artım 140,1 min manat, yaxud 194,6 % təşkil edir. Qeyd etmək lazımdır ki, Rayon Bölmələri də zavallı insanlara yardımlarını

çoxaldıblar. 2005-ci ilə nisbətən yardımların artımı 125,4 min manata, yaxud 190% təşkil edir və bu çox fərəhləndirici bir göstəricidir. Təbii ki, təsərrüfat xərcləri 203 % artıb, əmək haqqı 81,5 %. Lakin əmək haqqı fondu illik xərclərin 29,2 % təşkil edərək təsdiq olunmuş 35 % çərçivəsindədir.

Onu da qeyd etmək lazımdır ki, son illərdə yerli bölmələrdə Mühasibatlığı gücləndirmək məqsədi ilə Az.QAC-in yerli bölmələrində maliyyə işlərinin qurulmasına dair təlimat hazırlanmış və yerli bölmələrə paylanmışdır. 2008-ci il ərzində bütün regional mərkəzləri əhatə edən yerli bölmələrdə mühasibatlıq işlərinin qurulmasına dair treyninqlər keçirilmişdir. Eləcə də 2008-ci il ərzində bütün yerli bölmələrin əksəriyyətində audit yoxlaması keçirilib və yoxlamanın nəticələri üzrə analiz aparılaraq maliyyə-təssərüfat fəaliyyətləri barədə rəy verilmişdir. Gələcəkdə bütün yerli bölmələrdə audit yoxlaması keçirilməsi məqsədə uyğun hesab olunur.




| | 2008 | |
|---|---|---|
| Gəlirlər | manatla | faiz |
| o cümlədən | 1 688 797,69 | 100% |
| Beynəlxalq Federasiya | 129 177,82 | 8% |
| BQXK | 113 860,43 | 7% |
| Norveç Qan Donorluğu Humanitar layihəsi | 4 863,53 | 0,1% |
| Büdcə vəsaiti | 550 757,00 | 33% |
| Üzvlük haqlarından | 650 459,50 | 39% |
| Küveyt Humanitar Yardım layihəsi | 83 690,00 | 5% |
| Polşa İlk Yardım layihəsi | 27 667,47 | 2% |
| İanə qutularından,müəssisə və təşkilatlardan, ayri-ayri şəxslərdən | 110 306,94 | 7% |
| Sair gəlirlər | 18 015,00 | 1,1% |




2008

| Xərclər | manatla | faiz |
|---|---|---|
| O cümlədən | 1 654 451,66 | 100% |
| Beynəlxalq Federasiya | 129 177,82 | 8% |
| BQXK | 110 850,33 | 7% |
| Büdcə vəsaiti | 550 757,00 | 33% |
| Xarici donorlar | 32 530,00 | 2% |
| Az QAC hesabına olan humanitar aksiyalar | 526 794,71 | 32% |
| Təsərrüfat xərcləri və əmək haqqı | 263 860,80 | 16% |
| Sair | 40 481,00 | 2% |

## TARİX

10 **mart** 1920-**ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma günü

1920-1991, Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü
25 **noyabr** 1994-**cü il**
Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında» qərarı ilə Milli Cəmiyyətin tanınması

01 **noyabr** 1995-**ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır.

26 **Noyabr** 1995-**ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir.

**Dekabr** 2001-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasında «Fövqəladə Hallara Hazırlıq və Yardım Komissiyası»na ekspert təyin olunmuşdur.

5 **Sentyabr** 2003-**cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Sərəncamı

31 **Yanvar** 2004-**cü il**

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm İlham Əliyev cənabları «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzalamışdır.

10 **mart** 2005-**ci il**

Qızıl Ayparanın 85 illik yubileyi münasibətilə Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə xüsusi xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinın Prezidenti Novruz Aslanov və digər 6 əməkdaşı «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

8 **may** 2005-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 3 tibb işçisi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək «Florens Naytinqeyl» medalına layiq görülmüşdür.

8 **may** 2007-**ci il**

«Azərbaycan Qızıl Aypra Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu

22 **may** 2007-**ci il**

Azərbaycan Qızıl Aypra Cəmiyyəti haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

8 **may** 2007-**ci il**

«Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

22 **may** 2007-**ci il**

«Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

11 **iyul** 2007-**ci il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər və əlavə edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

7 aprel 2008-ci il

«Qızıl Aypara Gününün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

21 **İyul** 2008-**ci il**

Nazirlər Kabinetinin sərəncamına əsasən ofis binasının Azərbaycan Qızıl Aypara Cəmiyyətinə əvəzsiz istifadəyə verilməsidir